Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI



№ 02 fevral 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



# QANUNÇULUQ

HÜQUQ JURNALI

№ 02 FEVRAL 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**

(012) 539-76-75
Qaynar xətt

Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

## RƏSMİ MƏLUMAT







Donald Tusk: Azərbaycan Avropa İttifaqı üçün mühüm tərəfdaşdır ..............5
Azərbaycan Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak edib ..........8
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətində rəsmi səfərdə olub ..........11
İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti keçirilib ..........13
"M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........16
Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib ..........16
"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........20

## XOCALI SOYQIRIMI - 25 İL



"Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........23
Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib ..........24
Sükut dəqiqəsi ..........27
"Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar" Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ..........28

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin Azərbaycan Respublikasına səfəri..........32
Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukianinin Azərbaycana səfəri..........39

## İCLASLAR, QƏBULLAR...





Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə dinlənilib ..........43
Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2016-cı il üzrə) *Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı* ..........44
Ölkə Prezidentinin tapşırıqları təxirəsalınmadan icra edilir..........49
Ədliyyə naziri Ucar rayonunda vətəndaşları qəbul edib ..........50
Məhkəmə-Hüquq Şurasının geniş iclası ..........51

## ƏDLİYYƏ NAZİRLİYİNDƏ



Ədliyyə Nazirliyində görüşlər..........53
Ölkəmiz beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir ..........55
Gənclər Günü ədliyyə orqanlarında qeyd olunub..........56





**XOCALIYA ƏDALƏT**

Ədliyyə orqanlarında Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı tədbirlər keçirilib ....57
Səyyad Məcidov. Xocalı soyqırımına görə beynəlxalq cinayət mühakiməsi necə reallaşmalıdır? ....59
Leyla Hacıyeva. Bəşər tarixinin ən qanlı faciəsi - Xocalı soyqırımı ....63

**TƏLİMLƏR, SEMİNARLAR**

Ədliyyə Akademiyası hakimlər, vəkillər və digər hüquqşünaslar üçün təlimlər keçirib ....65
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər görülür ....66
Naxçıvanda məhkumlar üçün peşə kursları təşkil olunub ....67

**YENİ QANUNLAR, FƏRMANLAR...**

"Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....68
"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ....68
"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ....70
"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ....70
"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu....71
"Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....72

# Donald Tusk: Azərbaycan Avropa İttifaqı üçün mühüm tərəfdaşdır

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına səfəri

**Fevralın 5-6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Belçika Krallığında səfərdə olub.**

Səfər zamanı dövlətimizin başçısının Avropa İttifaqının bir sıra rəsmiləri ilə görüşləri keçirilib.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə keçirilmiş görüşdən sonra mətbuata birgə bəyanatla çıxışlar edilib.



Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüş

Donald Tusk bəyanatında müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyi Azərbaycanın Avropa İttifaqı üçün mühüm tərəfdaş olduğunu qeyd edib, Avropa İttifaqının insan haqları və əsas azadlıqlara, o cümlədən ifadə azadlığına verdiyi əhəmiyyəti vurğulayaraq bunu açıq cəmiyyətlərdə uzunmüddətli sabitlik və inkişafın ən yaxşı təminatı hesab edib. O, Azərbaycanın mədəniyyətlər arasında körpü rolunu oynadığını və bunun təqdirəlayiq olduğunu söyləyib, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq status-kvonun bu cür davamlı qalmasının mümkünsüzlüyünü bildirib, münaqişənin hərbi yolla deyil beynəlxalq hüquqa əsasən siyasi qaydada nizamlanmalı olduğunu, ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçilik səylərini və təkliflərini tam dəstəklədiyini söyləyib.



Mətbuata birgə bəyanatla çıxışlar




*Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker ilə görüş*




*Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini ilə görüş*

Avropa İttifaqı Şurasının prezidenti ölkəmizlə əlaqələri daha yüksək səviyyəyə qaldırmaq və yeni ikitərəfli saziş vasitəsilə əlaqələrin tam potensialını inkişaf etdirmək niyyətində olduğunu qeyd edərək yeni Avropa İttifaqı-Azərbaycan sazişi ilə bağlı danışıqlara start verilməsini sevinc hissi ilə bəyan edib.

İkitərəfli əməkdaşlığın çox səmərəli, səmimi və böyük potensiala malik olduğunu söyləyən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin bütün vətəndaşlarına hər hansı imkanı təmin etmək üçün Azərbaycanda demokratik islahatların davam etdirilməsinə sadiq olduğunu bildirib, enerji sahəsindəki əməkdaşlıqdan bəhs edərək "Cənub Qaz Dəhlizi" layihəsinin icrası üzrə işlərdən danışıb.

Dövlətimizin başçısı Avropanın Azərbaycanın əsas investoru, ticarət tərəfdaşı olduğunu bildirib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Avropa İttifaqının ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyinə görə minnətdarlığını ifadə edib.

Prezident İlham Əliyev daşımalar sahəsində gələcək potensial əməkdaşlıq, mədəniyyətlərarası dialoqa ölkəmizin verdiyi böyük önəm barədə məlumat verib, Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq sahəsində yaxşı təcrübənin olduğunu qeyd edərək Avropa İttifaqı ilə Azərbaycan arasında işbirliyimiz üçün yeni səhifənin açıldığını vurğulayıb.

Azərbaycan Prezidentinin Brüsseldə Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti Rene Van der Linden ilə görüşündə onun AŞPA-ya rəhbərlik etdiyi dövrdə ölkəmizin bu təşkilat ilə səmərəli əməkdaşlığından məmnunluq ifadə olunub, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri kimi iki ölkə arasında münasibətlərin dərinləşdirilməsində və Azərbaycana investisiyaların cəlb edilməsində rolu qeyd edilib. Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi baxımından Prezident İlham Əliyevin səfərinin önəmi vurğulanıb.

Dövlətimizin başçısı, həmçinin Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini ilə işçi səhər yeməyi edib.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub, əməkdaşlığın perspektivləri, energetika, nəqliyyat, təhlükəsizlik, regional və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşdə isə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji, təhlükəsizlik, ətraf mühit, nəqliyyat və digər sahələrdə səmərəli əməkdaşlığın aparıldığı, əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilib.

Azərbaycanın Avropa İttifaqının strukturları ilə əməkdaşlığından məmnunluq ifadə olunub, "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı işlərin həyata keçirildiyi bildirilib.

Eyni zamanda, bank sahəsində əməkdaşlıqdan söhbət açılıb, bu əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanıb, Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin Dünya Bankı ilə yaxşı əməkdaşlıq etdiyi bildirilib, digər məsələlər müzakirə olunub.

Prezident İlham Əliyevin Brüsseldə Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker ilə də görüşü olub. Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqdan məmnunluq bildirilən görüşdə Azərbaycanın dünya ölkələri, o cümlədən Avropa İttifaqı ilə sivilizasiyalar və mədəniyyətlər arasında dialoq sahəsində çox yaxşı əməkdaşlıq əlaqələrinin olduğu qeyd edilib, ölkəmizin bu qurumla, eyni zamanda, təhsil və humanitar sahələrdə də yaxşı əlaqələrin qurulduğu bildirilib.

Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın və ixracın şaxələndirilməsinin prioritet məsələ olduğu diqqətə çatdırılıb, enerji və nəqliyyat sahələrində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belçika Kralı Filipin görüşü olub.

Görüşdə Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub. Dövlətimizin başçısının bu səfərinin həm Azərbaycan-Belçika ikitərəfli münasibətlərinin genişlənməsi, həm də ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcəyinə əminlik bildirilib. Prezident İlham Əliyev Belçika şirkətlərini Azərbaycanın iqtisadiyyatının inkişafında iştiraka dəvət edib.




***Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüş***

Söhbət zamanı ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu vurğulanıb, regional, iqtisadi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Belçikaya səfəri çərçivəsində Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri qoyublar.



***Belçika Kralı Filip ilə görüş***

# Azərbaycan Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak edib



*"Qiymətlərin sabitləşməsinə doğru? OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda "dəyirmi masa"*

**Fevralın 16-19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 53-cü Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında işgüzar səfərdə olub.**

Müxtəlif ölkələrdən siyasətçilərin, biznes strukturlarının nümayəndələrinin, elm adamlarının iştirak etdiyi Konfransda təhlükəsizlik, enerji və digər sahələrə aid mühüm məsələlər müzakirə olunub.

Dövlətimizin başçısı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru? OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda "dəyirmi masa"da iştirak edib.

Artıq 50 ildən çoxdur mühüm məsələlərin müzakirə olunduğu beynəlxalq platformaya çevrilmiş Konfrans çərçivəsində enerji təhlükəsizliyi ilə bağlı keçirilmiş "dəyirmi masa"da müstəqil Azərbaycanın neft strategiyasının geosiyasi aspektləri üzrə çoxsaylı tədqiqatların müəllifi kimi tanınan, siyasi elmlər üzrə doktor Azərbaycan Prezidenti İlham Əliyev birinci çıxış edib.

Dövlətimizin başçısı regionun və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu və töhfəsi, enerji strategiyası haqqında danışıb, ölkəyə investisiyaların cəlb olunması, çoxsaylı boru kəməri sisteminin inşası, regional əməkdaşlıq layihələrinin həyata keçirilməsi barədə məlumat verərək Azərbaycanın Xəzər dənizinin şərq sahillərindən neft və neft məhsullarının çatdırılması üçün tranzit ölkəyə çevrildiyini diqqətə çatdırıb.

Hazırda çoxsaylı digər ölkələr, şirkətlərlə birlikdə və Avropa Komissiyasının dəstəyi ilə "Cənub Qaz Dəhlizi" layihəsinin icra edildiyini qeyd edən Prezident İlham Əliyev layihə tamamlandıqdan sonra Avropa üçün təbii qaz təchiz edən etibarlı və yeganə yeni qaz mənbəyi qismində Azərbaycanın rolunun artacağını və Avropa təşkilatları ilə əlaqələrimizin güclənəcəyini vurğulayıb.

"Dəyirmi masa"da Avropa İttifaqının enerji təhlükəsizliyinin təminatının şaxələndirilmə imkanları, bu sahədə mövcud cəhdlər, həmçinin neft qiymətləri və digər məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirə keçirilib.

Avrasiya Qrupunun sədri və təsisçisi Yan Bremmerin moderatorluğu ilə keçirilmiş paneldə Azərbaycan Prezidenti İlham Əliyev, Estoniya Prezidenti xanım Kersti Kalyulayd, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstan Senatının sədri, ölkənin keçmiş Baş naziri Kasım-Jomart Tokayev və Ukraynanın keçmiş Baş naziri və hazırda Narodniy Front Partiyasının sədri Arseni Yatsenyuk iştirak ediblər.






Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirə

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev panel-müzakirədə çıxış edərək Asiya ilə Avropa arasında yerləşən Azərbaycanın əsrlər boyu sivilizasiyaların qovuşduğu bir məkan olaraq dünyada multikulturalizm mərkəzlərindən birinə çevrildiyini, 25 ildən çoxdur öz müstəqilliyini bərpa edən Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş və hörmət edilən ölkə olduğunu bildirib. Həmçinin, Azərbaycanın müsəlman dünyasının bir hissəsi, eyni zamanda, Avropa qurumlarının fəal üzvü olduğunu söyləyib, 2015-ci ildə Bakıda ilk Avropa Oyunlarının uğurla baş tutduğunu, bu il isə ölkəmizin IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcəyini vurğulayıb.

Moderatorun sualına cavabında son illərdə bütün sahələri əhatə edən islahatların həyata keçirildiyini, Azərbaycanın təşəbbüsü ilə iri enerji və nəqliyyat layihələrinin icra olunduğunu diqqətə çatdıran Prezident İlham Əliyev hazırda ölkəmizin qədim "İpək Yolu"nun bərpasında yaxından iştirak etdiyini, Bakı-Tbilisi-Qars dəmiryolunun çəkildiyini, bu yolun fəaliyyətə başladığı təqdirdə Azərbaycanın üzərindən daşımaların artacağını və təbii ki, bunun da milli iqtisadiyyatımıza müsbət təsir göstərəcəyini vurğulayıb.

Prezident İlham Əliyev həmçinin, tədbirin aparıcısının təyyarənin vurulması hadisəsindən sonra kəskinləşən Rusiya-Türkiyə münasibətlərinin qısa müddətdə necə düzəlməsi və bu məsələdə rəsmi Bakının mövqeyi ilə bağlı sualını cavablandırıb, artıq Azərbaycanın sabitləşdirici amil kimi rolunun artdığını və bunun getdikcə beynəlxalq ictimaiyyət tərəfindən daha çox tanındığını bildirərək, bir neçə gün bundan əvvəl ABŞ və Rusiya Baş qərargah rəislərinin Bakıda keçirilən görüşünü də şərh edib.

Sonra tədbir müzakirələrlə davam etdirilib. Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllindəki fəaliyyəti ilə bağlı suala cavabında Prezident İlham Əliyev bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya, ABŞ və Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi təcavüzkara təzyiq göstərməli, onların iştirakı ilə münaqişənin həllinə dair Təhlükəsizlik Şurası tərəfindən qəbul olunan dörd qətnamə yerinə yetirilməlidir. "Ermənistan təkcə Dağlıq Qarabağı yox, həmçinin erməni əhalisinin heç vaxt yaşamadığı ətraf yeddi rayonu da işğal edib", - deyən dövlətimizin başçısı qondarma "Dağlıq Qarabağ rejimi"nin keçirəcəyi "referendum"un tamamilə qanunsuz olduğunu və dünyanın heç bir ölkəsi



BMT-nin baş katibi Antonio Quterreş ilə görüş



Xorvatiyanın Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüş

tərəfindən tanınmadığını diqqətə çatdırıb. Rusiya, ABŞ, Fransa və Avropa İttifaqının artıq Dağlıq Qarabağı müstəqil bir subyekt kimi tanımadığını və bu "referendum"un nəticələrini tanımayacağını bildirən bəyanatlar verdiyini vurğulayıb.

Azərbaycanın beynəlxalq qurum və təşkilatlarla əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin Avropa Komissiyasına təklif etdiyi layihə əsasında danışıqlara başlandığını və bu razılaşmanın tezliklə tamamlanacağına ümidvar olduğunu söyləyib. Bununla yanaşı, dövlətimizin başçısı Avropa İttifaqına üzv ölkələrin doqquzu ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair sazişlərin imzalandığını qeyd edib.

"Avropanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında rolu ilə bağlı gözləntiləriniz



Türkiyənin Baş naziri Binəli Yıldırım ilə görüş

nədir?" sualına cavabında Prezident İlham Əliyev bildirib ki, Dağlıq Qarabağda baş verənlərlə bağlı Ermənistana sanksiyalar tətbiq olunmayıb və bu ikili yanaşma aradan qaldırılmalıdır. Dövlətimizin başçısı səylərin birləşdirilməsi və təcavüzkar Ermənistana torpaqları boşaltmaqla bağlı təzyiq göstəriləcəyi təqdirdə münaqişənin tezliklə həll olunacağına ümid etdiyini diqqətə çatdırıb.

Panel-müzakirələrdə Estoniya Prezidenti xanım Kersti Kalyulayd, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstan Senatının sədri Kasım-Jomart Tokayev və Ukraynanın keçmiş Baş naziri Arseni Yatsenyuk da çıxış ediblər.

Səfər çərçivəsində Prezident İlham Əliyevin BMT-nin baş katibi Antonio Quterreş, Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç, Əfqanıstan



Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüş

Prezidenti Məhəmməd Əşrəf Qani, Türkiyənin Baş naziri Binəli Yıldırım, İsrail Dövlətinin müdafiə naziri Aviqdor Liberman, Kiyev şəhərinin meri, Ukrayna İslahatlar naminə Demokratik Alyansının sədri Vitali Kliçko, "MAN SE" şirkətinin baş icraçı direktoru Yoaxim Dris, "Kaspersky Lab" şirkətinin sahibi və baş icraçı direktoru Yevgeni Kasperski və "Leonardo" şirkətinin baş icraçı direktoru və baş meneceri Mauro Moretti ilə görüşləri olub, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasına işgüzar səfəri fevralın 19-da başa çatıb.



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətində rəsmi səfərdə olub

**Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra yaxın və uzaq ölkələrlə milli maraqlarına uyğun qurulmuş dostluq və əməkdaşlıq münasibətləri uğurla inkişaf edir. Respublikamızın İslam ölkələri ilə əməkdaşlığı da ildən-ilə genişlənir.**

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qətər Dövlətinə rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ olub.

Qətər Dövləti ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələr 14 sentyabr 1994-cü il tarixində yaradılıb. 2007-ci ildə Azərbaycan Respublikasının Dohada, Qətər Dövlətinin isə Bakıda səfirliyi fəaliyyətə başlayıb. Ötən dövrdə iki ölkə arasında müxtəlif sahələrə dair əməkdaşlıq sazişlərinin imzalanması, dövlət başçılarının müxtəlif beynəlxalq qurumlarda keçirdikləri səmərəli görüşlər münasibətlərin inkişafına ciddi təkan verir.

Dövlətimizin başçısı İlham Əliyevin rəsmi səfəri zamanı Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani ilə keçirilmiş geniş tərkibdə görüşdə son vaxtlar iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq münasibətlərinin sürətlə inkişaf etdiyi bildirilib.

Ölkəmizə səfərini xatırladan Əmir respublikamızın sürətli inkişafının şahidi olduğunu diqqətə çatdıraraq bildirib ki, Azərbaycanda sabitlik və təhlükəsizlik mövcuddur. Bu da həm iqtisadi, həm turizm sahələrində inkişafa imkan yaradır. Qətər Dövlətinin Əmiri qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın inkişafına xidmət edəcəyini vurğulayıb.

Prezident İlham Əliyev Qətərə əvvəlki səfərini məmnunluqla xatırladıb və ötən müddət ərzində bu ölkədə böyük inkişafın şahidi olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlardan, qeyri-neft sektorunun inkişafından danışaraq vurğulayıb ki, əsas məqsəd qeyri-neft sektoru məh-



*Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani ilə görüş*

sullarının xarici bazarlara ixrac edilməsidir.

Söhbət zamanı müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm, mədəniyyət, infrastruktur sahələrində əlaqələrin genişləndirilməsinin önəmi vurğulanıb, digər ölkələrdə müxtəlif sahələrdə layihələrin icrasına birgə sərmayə qoyuluşu, neft və qaz sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Azərbaycan Prezidentinin və Qətər Dövlətinin Əmirinin təkbətək görüşündə də ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Azərbaycan Prezidentinin Qətərə səfərinin əlaqələrimizin daha da genişləndirilməsi və əməkdaşlığın perspektivlərinin müəyyən edilməsi baxımından əhəmiyyəti qeyd edilib. Həmçinin, ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Fevralın 27-də Prezident İlham Əliyevin və Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin iştirakı ilə keçirilmiş imzalanma mərasimində Azərbaycan və Qətər hökumətləri arasında mədəniyyət, gənclər və idman, kökü kəsilmək təhlükəsi qarşısında olan vəhşi təbiətin qorunması və onun təbii mühitinin mühafizəsi sahələrində əməkdaşlığa dair, habelə iki ölkənin Mülki Aviasiya administrasiyaları, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Qətər Limanları İdarəetmə Şirkəti "MWANİ Qatar" arasında anlaşma memorandumları, həmçinin Azərbaycan və Qətər hökumətləri arasında hava daşımalarına dair Sazişə əlavə Protokol imzalanıb.

Səfər çərçivəsində dövlətimizin başçısının, həmçinin Dohada "Al Faisal Holding" şirkətinin rəhbəri və Qətər İş Adamları Assosiasiyasının sədri Şeyx Faisal bin Qassim bin Faisal Al Tani, "Qatar Petroleum"un prezidenti və icraçı direktoru Saad Şerida al-Kaabi ilə görüşləri olub. Görüşlərdə ticarət və investisiya sahələrində qarşılıqlı fəaliyyətin perspektivləri, habelə Azərbaycan ilə "Qatar Petroleum" arasında əməkdaşlıq imkanları müzakirə edilib, bir sıra layihələrdə birgə iştirakın mümkünlüyü vurğulanıb.



*Azərbaycan-Qətər sənədlərinin imzalanması mərasimi*

# İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana səfəri

**Azərbaycanın bütün sahələrdə əməkdaşlıq əlaqələrinin ildən-ilə inkişafına mühüm önəm verdiyi ölkələrdən biri də Pakistan İslam Respublikasıdır.**

Rəsmi İslamabadın Azərbaycanla əməkdaşlığa olan marağı təkcə ölkəmizin malik olduğu strateji-coğrafi mövqe və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən dövlətçilik kursunun dönməzliyi ilə şərtlənir.

Rəsmi İslamabad Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT-nin müvafiq qətnamələrinin yerinə yetirilməsinə və bu münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğunu dəfələrlə bəyan edib.

İki ölkə arasında qarşılıqlı faydalı münasibətlər, eyni zamanda, dünyada və regionda sülhün, əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.



*Pakistan Prezidenti Məmnun Hüseyn ilə görüş*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 28-də Pakistan İslam Respublikasına səfəri ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bir daha təsdiqləyib.

Səfər zamanı Prezident İlham Əliyev və Pakistan Prezidenti Məmnun Hüseyn arasında keçirilən görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Kəşmir problemi ilə bağlı Azərbaycanın və Pakistanın bir-birinin ədalətli mövqeyini dəstəkləməsində qətiyyət göstərdikləri vurğulanıb. Söhbət zamanı regional təhlükəsizlik və əməkdaşlıq məsələləri də müzakirə olunub.

Dövlətimizin başçısının Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif ilə keçirdiyi görüşdə də ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olduğu bildirilib. Həmçinin, Azərbaycan ilə Pakistan arasında siyasi əlaqələr müzakirə edilib, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb.



*Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif ilə görüş*




*İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti*

Görüşdə müdafiə və müdafiə sənayesi sahəsində konkret layihələr müzakirə olunub, Azərbaycanın Pakistanın inkişaf etmiş hərbi sənaye kompleksinin məhsullarını idxal etməsi ilə bağlı razılaşma əldə edilib. Bundan əlavə, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının vacibliyi vurğulanıb, fevral ayında 20-yə yaxın Azərbaycan şirkətinin Pakistanda ixrac missiyasında olduğu və bu missiyanın Azərbaycanın Pakistana ixracının artırılması məqsədi daşıdığı qeyd edilib.

Söhbət zamanı energetika sahəsində, humanitar və mədəni sahədə əməkdaşlıq məsələləri ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirildikdən sonra Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında enerji sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb.

Martın 1-də Pakistan İslam Respublikasının paytaxtı İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XIII Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Sammitdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri əvvəlcə rəsmi foto çəkdiriblər. Zirvə görüşü "Qurani-Kərim"dən ayənin oxunması ilə başlayıb. Sammiti İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə görüşünə ev sahibliyi edən və təşkilata sədrliyi həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıb.

Azərbaycanın 2006-cı və 2012-ci illərdə İqtisadi Əməkdaşlıq Təşkilatının iki Zirvə görüşünə ev sahibliyi etdiyini söyləyən dövlətimizin başçısı bildirib ki, İƏT xalqlarımızın mənafeyi naminə əməkdaşlıq üzrə siyasi iradəmizin məhsuludur. İqtisadi Əməkdaşlıq Təşkilatının uğurlu fəaliyyəti birgə maraqlarımıza cavab verir. Ölkələrimizin xalqlarını birgə tarix, mədəniyyət, ənənələr və din birləşdirir.



Prezident İlham Əliyev sədrliyimiz dövründə Azərbaycanın təşkilatın inkişafına və regional əməkdaşlığın dərinləşdirilməsinə böyük töhfə verdiyini, ölkəmizin tərəfdaşları ilə istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə iqtisadi əlaqələrini möhkəmləndirdiyini qeyd edib, Təşkilatı yalnız Şərq və Qərb, Şimal və Cənub arasında fiziki körpü deyil, müxtəlif sivilizasiyaları və mədəniyyətləri birləşdirən məkan kimi təşviq etməkdə səylərini əsirgəmədiyini diqqətə çatdırıb.

Həmçinin, Azərbaycanın İƏT-in digər dövlətlərinə əlavə əməkdaşlıq imkanları yaradan layihə həyata keçirildiyi, ölkəmizin 2013-cü və 2014-cü illərdə enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf üzrə birinci və ikinci beynəlxalq konfransların təşəbbüskarı olduğu qeyd olunub, İƏT regionunda informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa da sadiq qaldığı vurğulanıb, bir çox digər sahələr üzrə əməkdaşlığın gücləndirilməsi üçün müxtəlif tədbirlərə ev sahibliyi etdiyi bildirilib.

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə görüşünün sədrinin seçkisi keçirilib və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif sədr seçilib.

Pakistanın dövlət himni səsləndikdən sonra Baş nazir Məhəmməd Nəvaz Şərif İqtisadi Əməkdaşlıq Təşkilatının XII Sammitindən ötən müddətdə görülən işləri yüksək qiymətləndirərək Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Budəfəki Sammitin təşkilatın genişləndirilməsinin 25 illiyinə təsadüf etdiyini deyən Baş nazir hazırkı Zirvə görüşünün ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağını bildirib. O, Pakistanın bu quruma sədrliyi dövründə üzv ölkələr arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün səylə çalışacaqlarını vurğulayıb.

İƏT-in baş katibi Xəlil İbrahim Akça Sammitin ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün mühüm fürsət olduğunu qeyd edib. Ticarət, nəqliyyat, enerji, turizm, ərzaq təhlükəsizliyinin təmin olunması və digər sahələrdə əməkdaşlığın gücləndirilməsinin təşkilatın gündəliyində yenə də vacib yerdə dayandığını deyən baş katib BMT-də müşahidəçi statusuna malik olan İqtisadi Əməkdaşlıq Təşkilatının bu Zirvə görüşünün nəzərdə tutulan layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək Azərbaycan ilə Pakistanı dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini vurğulayıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən 4 qətnamənin, həmçinin İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən bənzər qətnamə və qərarların qəbul edildiyini bildirərək qeyd edib ki, Ermənistan bu qətnamələrə əməl etməli və ya sanksiyalara məruz qalmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.



*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüş*

Dövlətimizin başçısı Azərbaycanın İƏT çərçivəsində fəaliyyətə, üzv dövlətlər arasında iqtisadi, nəqliyyat, enerji sahələrində əməkdaşlığın gücləndirilməsinə, eləcə də müsəlman ölkələri arasında həmrəyliyə xüsusi əhəmiyyət verdiyini söyləyib, bu istiqamətlərdə həyata keçirilən işlərdən danışıb.

Sammitdə digər çıxış edənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin qarşıda duran məsələlərin həlli üçün səylərini bundan sonra daha da gücləndirmələrinin, iqtisadi əlaqələri möhkəmləndirməyin, qarşılıqlı investisiya yatırımlarının artırılmasının və səmərəli təkliflərin nəzərə alınmasının vacibliyini vurğulayıb, Pakistana bu təşkilata sədrliyi dövründə uğurlar arzulayıblar.

Tədbirin sonunda İslamabad Bəyannaməsi qəbul edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 1-də Pakistan İslam Respublikasına səfəri başa çatıb.

## M.A.Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının $103^1$-ci maddəsinin I hissəsini rəhbər tutaraq **qərara alıram:**
Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 fevral 2017-ci il*

## Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi ilə əlaqədar fevralın 21-də dövlət başçısının sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib.

**İclasda Prezident İlham Əliyev Mehriban xanım Əliyevanı təqdim edərək deyib:**



-Bu gün mənim Sərəncamımla Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilib. Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir, Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu gün Yeni Azərbaycan Partiyasının üzvlərinin sayı 700 minə yaxınlaşır.

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. O, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır və onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb.

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilmişdir. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir.

Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərmişdir. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilmişdir. Bir çox hallarda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam



müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur.

Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır.

Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və onun bu fəaliyyəti də təqdirəlayiqdir. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban Əliyeva xüsusi rol oynamışdır. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz onun təşkilatçılığı ilə mümkün olmuşdur. 2015-ci ildə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində mümkün olmuşdur. İki il yarım ərzində bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirmək, əlbəttə ki, böyük nailiyyət idi. Birinci Avropa Oyunları tarixdə ən yüksək səviyyədə keçirilmiş mötəbər idman tədbiri kimi qalacaqdır.

Təsadüfi deyil ki, bu il keçiriləcək IV İslam Həmrəyliyi Oyunlarının təşkili də Mehriban Əliyevaya həvalə edilib. Bu Oyunların Təşkilat

Komitəsinin sədri də odur və hazırlıq işləri yüksək səviyyədə aparılır. Əminəm ki, biz İslam Həmrəyliyi Oyunlarını da yüksək səviyyədə keçirəcəyik.

Mehribanın beynəlxalq aləmdə böyük nüfuzu var. Məhz öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir. Eyni zamanda, on ildən artıqdır ki, Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda, onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır. Əlbəttə ki, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Mehriban bu işə də çox önəmli töhfə verir. 2015-ci ildə birinci Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.



Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

Sadaladığım bütün bu amilləri nəzərə alaraq, mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Bu təyinat münasibətilə mən onu təbrik edirəm və ona yeni uğurlar arzulayıram.

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva çıxış edərək deyib:**

-Hörmətli cənab Prezident.

Mənə göstərdiyiniz yüksək etimada görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam.

Mənim fəaliyyətim haqqında dediyiniz sözlərə, verdiyiniz qiymətlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Mənim üçün belə bir qiymətə layiq olmaq böyük şərəfdir. Sadaladığınız hər bir uğurun, hər bir nailiyyətin arxasında Sizin köməyiniz, Sizin dəstəyiniz durur.

Ötən illər ərzində Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır.

Rəhbərlik etdiyim Heydər Əliyev Fondu artıq 13 ildir ki, öz fəaliyyətini humanizm prinsipləri əsasında qurub. Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Biz Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik. Biz infrastruktur layihələri icra edirik. Eyni zamanda, biz 13 il ərzində ayrı-ayrı insanların problemlərinə heç zaman biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Hesab edirəm ki, bu, dövlət qurumlarında çalışan bütün insanların əsas borcu və vəzifəsidir. Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.

Hörmətli cənab Prezident.

Hörmətli Təhlükəsizlik Şurasının üzvləri.

Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam.

Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.

Göstərdiyiniz etimada görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

***

İclasda Təhlükəsizlik Şurasının üzvləri Azərbaycan Respublikası Prezidentinin qərarını dəstəklədiklərini bildirib və Mehriban Əliyevaya fəaliyyətində uğurlar arzulayıblar.

---

## *Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya*

**Çox hörmətli Mehriban xanım!**

***Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli tərəqqisinə ümumxalq etimadının növbəti təzahürü olan sonuncu referendum nəticəsində Konstitusiyamızda ilk dəfə təsis edilmiş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə dövlət başçısı tərəfindən Sizin təyin edilməyiniz mühüm əlamətdar hadisə kimi xalqımızın hədsiz sevincinə səbəb olmuşdur.***

***Zati-aliləri cənab İlham Əliyevin ən sadiq silahdaşı, ölkəmizdə və beynəlxalq aləmdə dərin hörmət və böyük nüfuz qazanmış ictimai-siyasi xadim, Azərbaycanın birinci xanımı kimi Siz ümummilli liderimiz Heydər Əliyev dühasının milli və bəşəri amallarından bəhrələnərək respublikamızın müasir, dinamik inkişaf edən ölkəyə çevrilməsi və xalqımızın rifahının yüksəldilməsi naminə misilsiz xidmətlər göstərirsiniz.***

***Heydər Əliyev Fondunun prezidenti kimi ölkəmizdə elmin, təhsilin və mədəniyyətin inkişafına, sosial problemlərin həllinə yönələn bir çox önəmli proqram və layihələrin icrası, müasir infrastrukturların yaradılması, tarixi, mədəni irsimizin qorunması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə layiqincə çatdırılması, respublikamızda möhtəşəm beynəlxalq tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində çoxşaxəli və əzmkar fəaliyyətiniz danılmazdır.***

***İnsanpərvərliyin, xeyirxahlığın və tolerantlığın təbliğinə, sivilizasiyalararası dialoqun inkişafına verdiyiniz dəyərli töhfələr, çoxşaxəli mesenatlıq fəaliyyətiniz, xarici dövlətlərdə həyata keçirdiyiniz geniş humanitar aksiyalar dünyada Sizə böyük nüfuz gətirir. Nadir hal olaraq YUNESKO və İSESKO-nun eyni zamanda xoşməramlı səfiri olmağınız multikulturalizm dəyərlərinə layiqli töhfələrinizin beynəlxalq etirafıdır.***

***Ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının sədr müavini, həmçinin böyük etimadla dəfələrlə seçildiyiniz Milli Məclisin deputatı kimi cəmiyyətimizin siyasi həyatında və qanunvericiliyimizin inkişafında yorulmaz fəaliyyətinizlə, habelə yüzlərlə ailəyə sevinc bəxş edən mühüm humanist aktların qəbul olunması üzrə təşəbbüslərinizlə xalqımızın dərin məhəbbət və rəğbətini qazanmısınız.***

***Xidmətləriniz hər zaman ölkəmizdə və beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş, bir sıra xarici dövlətlərin ən nüfuzlu təltiflərinə və respublikamızın ali mükafatı olan "Heydər Əliyev" ordeninə layiq görülmüsünüz.***

**Hörmətli Mehriban xanım!**

***Tam əminliklə vurğulayırıq ki, Siz Azərbaycan tarixində dərin iz qoyan böyük bir ziyalı nəslin layiqli nümayəndəsi kimi prinsipial və qətiyyətli mövqeyiniz, müasir düşüncəniz, peşəkarlığınız, idarəçilik keyfiyyətləriniz, tükənməz bacarıq və təşkilatçılıq məharətiniz sayəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində doğma Vətənimizin çiçəklənməsi naminə əvəzsiz töhfələr verərək yeni-yeni nailiyyətlərə imza atacaqsınız.***

**Dərin hörmət və ehtiramla,**

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri**

***21 fevral 2017-ci il***

### Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir.

Cəzaların icrası sahəsində həyata keçirilən islahatlara baxmayaraq, son zamanlar aparılmış təhlillər göstərir ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, cəzanı icra edən orqan və müəssisələrdə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından kifayət qədər istifadə edilmir.

İbtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq edilməsi, habelə həmin cinayətlərə görə azadlıqdan məhrum etmənin dinamikasının artması məhkumların sayının çoxalmasına və penitensiar müəssisələrin yüklənməsinə səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud olan nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması, müasir texnoloji vasitələrin tətbiq edilməsi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirləri davam etdirilsin. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılsın.

2. Cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələri tətbiq olunsun.

3. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində nəzərdə tutulmuş qaydada çəkilməsi və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunması təmin edilsin, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınması üçün tədbirlər görülsün.

4. İctimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısı alınsın, ictimai işlər və azadlıq-

dan məhrum etmə ilə əlaqədar olmayan digər cəzaların icrasına effektiv nəzarət təmin edilsin.

5. Azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması imkanları araşdırılsın, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması üçün tədbirlər görülsün.

6. Penitensiar xidmətin yüksək peşəkar kadr korpusunun formalaşdırılması, vəzifələrə təyinatın daha çevik və qısa müddətdə aparılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, habelə onların sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlər görülsün.

7. Penitensiar müəssisələrin etibarlı mühafizəsinin təşkil edilməsi məqsədilə penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsi təmin olunsun.

8. İbtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunsun, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi genişləndirilsin.

9. Cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət edilsin, cinayət təqibi və cəzaların icrası zamanı qeyri-prosessual münasibətlərə yol verilməsin, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı mübarizədə daha ciddi tədbirlər görülsün.

10. Cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, aşağıdakı istiqamətlərdə qanun layihələrini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər:

10.1. cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması;

10.2. cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi;

10.3. törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması;

10.4. azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi;

10.5. həbsə alternativ olan qətimkan tədbirinin tətbiq edilməsi hallarının genişləndirilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi qaydasının sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması.

11. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

11.1. probasiya xidmətinin təşkili ilə əlaqədar təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə normativ hüquqi aktlara dəyişikliklərin edilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birlikdə hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.3. "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sistemini təşkil etsin, həmin sistem vasitəsilə cəzaları icra edən orqan və müəssisələr arasında real vaxt rejimində qarşılıqlı məlumat mübadiləsini təmin etsin, informasiya sisteminə məlumatlar toplanarkən bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatların müəyyən etdiyi meyarları nəzərə alsın;

11.4. ictimai işlər növündə cəza çəkən məhkumların iş yerlərində dəqiq qeydiyyatının təşkil edilməsi, həmin işlərdən yayınmanın qarşısının

alınması və işlənmiş vaxtın dəqiq uçotunun aparılması üçün tədbirlər görsün;

11.5. məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.6. azadlıqdan məhrum edilmiş məhkumların və həbs edilmiş şəxslərin saxlanma şəraitinə, yemək, tibbi-sanitariya, maddi-məişət təminatına nəzarəti gücləndirsin;

11.7. bu Sərəncamın 3-6-cı hissələrində nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin və nəticəsi barədə hər altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

12. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki:

12.1. həbs qətimkan tədbirinin seçilməsi barədə vəsatətlərə baxılarkən ilk növbədə digər qətimkan tədbirlərinin seçilməsi mümkünlüyü araşdırılsın;

12.2. böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi barədə təqdimatlar müstəsna hallarda həbsin tətbiq edilməsinə dair cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş əsaslar mövcud olduqda verilsin.

13. Məhkəmələrə tövsiyə edilsin ki:

13.1. həbs qətimkan tədbiri seçilərkən şəxsin ittiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələrin və həmin qətimkan tədbirinin tətbiqi əsaslarının mövcudluğunu araşdırsınlar;

13.2. həbs qətimkan tədbirinin seçilməsinə dair təqdimatlara baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin qeyri-mümkün olduğuna dair dəlilləri yoxlasınlar;

13.3. cəzanın növü və həddini müəyyən edərkən cəzanın sosial ədalətin bərpası, məhkumun islah edilməsi və yeni cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə tətbiq edildiyini əsas tutsunlar;

13.4. cəzanın təyin edilməsi əsaslarına dair Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 58.1-ci maddəsinin tələblərinə riayət olunmasına xüsusi diqqət yetirsinlər.

14. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, həbs qətimkan tədbirinin seçilməsi və azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi ilə bağlı məhkəmə təcrübəsini mütəmadi ümumiləşdirsin və bu sahədə ədalətli məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin etsin.

15. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təklifləri əsasında penitensiar xidmətin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə tam komplektləşdirilməsini təmin etsin.

16. Yerli icra hakimiyyəti orqanları tərəfindən ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahıları təxirəsalınmadan müəyyən olunsun və həmin siyahıların mütəmadi olaraq icra məmurları ilə razılaşdırılması təmin edilsin.

17. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

17.1. elektron nəzarət vasitələrinin tətbiqi ilə əlaqədar maliyyələşmə məsələlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Baş Prokurorluğunun təklifləri əsasında həll etsin;

17.2. məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanması və təminatına dair Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin müddəalarına riayət olunmasının təmin edilməsi məqsədilə tikinti və təchizat işlərinin yerinə yetirilməsi üçün vəsaitin ayrılması mümkünlüyünə baxsın;

17.3. ictimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydasını təsdiq etsin;

17.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 fevral 2017-ci il*

### Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



Bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciədən 25 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeritmiş, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Həmin hərbi-siyasi təcavüz zamanı 613 həmvətənimiz, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca həlak olmuş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmamışdır.

2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan ordusu tərəfindən torpaqlarımızın bir qisminin işğalçılardan azad edilməsi ölkəmizin ərazi bütövlüyünü hərbi yolla bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz olduğunu bir daha sübuta yetirmiş, beynəlxalq ictimaiyyətə mövcud status-kvonun qəbuledilməzliyini nümayiş etdirərək işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması tələbini yenidən gündəmə gətirmişdir.

Geniş vüsət almış "Xocalıya ədalət" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki öz hüquqi qiymətini almamışdır.

Xocalı faciəsinin iyirmi beşinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 yanvar 2017-ci il*

# Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib




**XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından başlayan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkət ediblər.

Ümumxalq yürüşünün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı - 25 il" və s. çağırışlar və şüarlar nümayiş etdirilib.

İnsanların hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 25 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə-yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı



torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirib.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoyublar.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzüblər.

***

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli hadisələr xalqımızın tarixinə qanlı hərflərlə yazılıb. O gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın bu qədim şəhəri üzərinə hücum edib və onun dinc əhalisinə amansızcasına divan tutublar.

Xocalı soyqırımının qanlı statistikası belədir: Hücum zamanı şəhərdə olmuş 3 min nəfərdən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfər, o cümlədən 76 uşaq ağır yaralanıb, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb, 197 nəfərin taleyi hələ də məlum deyildir. Səkkiz ailə tamamilə məhv edilib. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər.

Ermənilərin bu cəza tədbiri hərtərəfli planlaşdırılıb və yeganə bir məqsədlə törədilib - dinc sakinləri milli mənsubiyyət əlamətinə görə qismən və ya tamamilə məhv etmək. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifələrindən biridir. "Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Prezidentinin 2017-ci il 24 yanvar tarixli Sərəncamında deyilir: "Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha



da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır".

Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan edilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, o cümlədən uşaqları belə qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar pay-







lanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunub. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada keçirilən mitinqlər, bir sıra ölkələrdə anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurub.

Bu yürüş həm də dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcək. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu ötən il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdular. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən bu qələbə sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

***

Fevralın 26-da bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam edib. On minlərlə insan soyqırımı abidəsini ziyarət edərək abidənin önünə tər çiçəklər qoyub, şəhidlərin ruhuna dualar oxuyublar.

# Sükut dəqiqəsi

**Fevralın 26-da Bakı vaxtı ilə saat 17:00-da Azərbaycanın bütün ərazisində Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Həmin anda paytaxtın küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılıb. Ölkəmizin şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endirilib.

Azərbaycan paytaxtının on minlərlə sakini fevralın 26-da səhər saatlarından başlayaraq Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edərək, şəhidlərin xatirəsini ehtiramla anıblar, abidənin önünə al qərənfillər düzüblər.



Respublikamızın bütün şəhər və bölgələrində, xarici ölkələrdə anma mərasimləri keçirilib.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

### Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİNİ QƏRARI

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində törədilmiş soyqırımı aktının 25 ili tamam olur. Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmişdir. Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

Xocalı soyqırımı Ermənistan Respublikasının Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin, eləcə də Xocalı faciəsindən təqribən ay yarım sonra Kəlbəcər rayonunun Ağdaban kəndinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdir. Təkcə bunu qeyd etmək kifayətdir ki, Qaradağlı kəndində 80 nəfərdən çox, Ağdaban kəndində 67 nəfər dinc azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar və qocalar işgəncə verilərək qəddarcasına öldürülmüş, onlarca adam girov götürülmüş, itkin düşmüş, kəndlər isə yandırılaraq yer üzündən silinmişdir.

Xocalı şəhərində əhalinin vəhşicəsinə kütləvi qırğını Dağlıq Qarabağ bölgəsinin işğalı üçün həyata keçirilən hərbi təcavüz zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq və onun mübarizə əzmini qırmaq niyyəti ilə törədilmişdir. Dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilmiş, 487 nəfər şikəst edilmiş, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalmışdır. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Xocalı şəhərində törədilmiş cinayətlərin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş tərifə tam uyğun gəldiyini sübut edir. Qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar. Yanan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Məlum olduğu kimi, məhdud coğrafi zonada oxşar əməllərin törədilməsi keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı tərəfindən soyqırımı aktı kimi tövsif edilmişdir.

Xocalı soyqırımının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin üzvləridir. Bu dəhşətli cinayətin üstündən

25 il keçməsinə baxmayaraq, onun təşkilatçıları və icraçıları məlum səbəblər üzündən indiyədək cəzasız qalırlar.

Xocalı faciəsi erməni şovinistlərinin Cənubi Qafqazda azərbaycanlılara qarşı qəsbkarlıq, təcavüz, soyqırımı və etnik təmizləmə siyasətinin yeni qanlı səhifəsi olmuşdur. Bu siyasət son iki yüz ilə yaxın dövrdə mərhələ-mərhələ həyata keçirilmişdir.

XIX əsrdə Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinin nəticələrini, o cümlədən Azərbaycanın çar Rusiyası tərəfindən ilhaqını təsbit edən müqavilələrə əsasən Cənubi Qafqaza yüz minlərcə erməni köçürülmüş, həm də din birliyi əsasında onlara yerli əhali ilə müqayisədə böyük hüquq və imtiyazlar verilmiş, bütün bunlar azərbaycanlı əhalinin hər vasitə ilə sıxışdırılmasına gətirib çıxarmışdır. "Daşnak" və "Hnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik erməni kütlələrini şovinist ideyalar ətrafında birləşdirməsindən sonra bu proses daha da sürətlənmişdir.

Birinci rus inqilabının başlandığı 1905-ci ildə silahlanmış mütəşəkkil erməni dəstələri Cənubi Qafqazda ilk dəfə olaraq etnik zəmində soyqırımı cinayəti törətmişlər. 1905-1907-ci illərdə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda kütləvi şəkildə azərbaycanlılara divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıqla öldürmüşlər. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərcə azərbaycanlı doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur.

Ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasəti çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi, keçmiş imperiyanın dərəbəyilik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə geniş vüsət almışdır. Bu dövrdə soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük bir qəddarlıqla həyata keçirilmişdir. 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərcə adamı yurd-yuvasından didərgin salmışlar. Təkcə Bakıda 30 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmişdir. Azərbaycanın tarixi torpaqlarına daxil olan İrəvan şəhərində və onun ətrafında 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər nəticəsində o vaxtkı İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildəki 375 min nəfərdən 1922-ci ildə cəmisi 70 min nəfərə enmişdir. Qeyd etmək lazımdır ki, 1918-ci ilin qanlı hadisələri zamanı Gəncədə, Oğuzda, Qubada və Azərbaycanın digər bölgələrində azərbaycanlılarla birlikdə, 3 minə qədər yəhudi də erməni quldur dəstələri tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Azərbaycan xalqına qarşı soyqırımı və etnik təmizləmə siyasəti çar Rusiyasının süqutundan sonra Azərbaycanın əzəli torpaqlarında Ermənistan Respublikasının yaradılmasına, azərbaycanlılara məxsus olan əlavə 20,2 min kvadratkilometr ərazinin də bu süni dövlət qurumuna qatılmasına, sovet dövründə Azərbaycan ərazisində ermənilər üçün qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin təşkil edilməsinə, 1948-1953-cü və 1988-1993-cü illərdə 1,5 milyon nəfər azərbaycanlının Ermənistan Respublikasından və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindən deportasiya edilməsinə və qovulmasına, Azərbaycan Respublikası ərazisinin 20 faizinin, yəni Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı daha yeddi rayonun - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının işğal olunmasına gətirib çıxarmışdır.

Təkcə son işğalçılıq müharibəsinin gedişində Ermənistan Silahlı Qüvvələri tərəfindən 20 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuşdur. 4750 adam əsir və itkin düşmüş, girov götürülmüşdür. 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın tarixi-mədəni irsini təşkil edən obyektləri xüsusi qəddarlıqla məhv etmişlər. Ələ keçirdikləri ərazilərdə onlar vandalizm aktları törədərək, 500-ə qədər tarixi və 100-dən çox arxeoloji abidəni, 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət etmiş və yandırmış, 44 məbədi və 9 məscidi təhqir etmişlər. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və misilsiz əlyazma məhv edilmişdir.

Son iki yüz ilə yaxın dövrdə Azərbaycan xalqının məruz qaldıqları fəlakətlərin bir çox səbəbləri vardır. Əsas səbəblərdən biri kənar qüvvələrin müəyyən siyasi niyyətlərini həyata keçirmək üçün erməni millətçiliyinə rəvac verməsi və ondan bir alət kimi istifadə etməsi olmuşdur. Çirkin geosiyasi oyunlarda onlar üçün ayrılan rolu uyğun görən erməni millətçilərinin qonşu xalqların torpaqları hesabına "böyük Ermənistan" yaratmaq xülyasına

düşməsi bölgədə bu gün də davam edən faciələrin əsasını qoymuşdur. Son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilmişdir. Erməni "alim"lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılmış, ermənilərin tarixi şişirdilərək qədimləşdirilmiş, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Cənubi Qafqazda baş verən hadisələr bilərəkdən təhrif edilmiş, dünya ictimaiyyətinin nəzərində "əzabkeş və məzlum" erməni xalqı obrazı yaradılmışdır.

Erməni millətçiliyinə qarşı mütəşəkkil müqavimət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qurulmuşdur. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli Fərmanı tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan vermişdir. Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların - soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmışdır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarixboyu bu ərazilərin yerli sakinləri olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görən erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilmişdir. Fərmana əsasən 31 mart günü son yüz ildən artıq dövrdə erməni millətçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklərin qurbanı olmuş günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq azərbaycanlıların soyqırımı günü elan edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev azərbaycanlıların soyqırımı ilə əlaqədar dəfələrlə xalqa müraciət etmiş, Xocalı faciəsini insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri kimi qiymətləndirmişdir. Dövlət başçısının Sərəncamı ilə bu il Xocalı soyqırımının 25-ci ildönümü qeyd edilir.

Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökumətlərindən XIX-XX əsrlərdə erməni millətçiliyinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanımağı, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir. Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən 26 fevral Xocalı soyqırımı günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir.

Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilmişdir. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər.

Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdür. Bakı şəhərində, ölkəmizin digər şəhər və rayonlarında Xocalı qurbanlarına abidələr ucaldılmış, Xocalı faciəsi haqqında məlumatlar orta məktəb proqramlarına daxil edilmişdir.

Məlum olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, mötəbər beynəlxalq təşkilatların əsas müzakirə mövzularından biridir. Həmin təşkilatların qəbul etdikləri sənədlər münaqişənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil edir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Avropa Parlamentinin və Avropa Şurası Parlament

Assambleyasının müxtəlif illərdə qəbul etdikləri qətnamələrdə də Ermənistan silahlı qüvvələrinin işğal olunmuş bütün ərazilərdən çıxarılması tələb edilmiş, yurdlarından didərgin düşmüş şəxslərin öz torpaqlarına geri dönməsi hüququ təsdiq edilmişdir.

Münaqişənin sülh yolu ilə nizama salınması üçün vasitəçilik səyləri göstərən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişməlidir və məsələ tezliklə öz həllini tapmalıdır. Həmsədrlərin irəli sürdüyü və Azərbaycan tərəfindən qəbul edilmiş Madrid prinsipləri də münaqişənin nizama salınmasına yönəlmişdir. Təəssüf ki, münaqişənin həll edilməsi üçün bu günədək göstərilən beynəlxalq səylər Ermənistanın qeyri-konstruktiv və pozucu mövqeyi üzündən heç bir səmərə verməmişdir.

Hər kəsə aydın olmalıdır ki, vəziyyətin bu cür qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu ötən ilin aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut edir. Ermənistan silahlı qüvvələri növbəti silahlı təxribata əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutmuşlar. Azərbaycan silahlı qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur olmuşlar. Genişmiqyaslı hərbi əməliyyatlar çoxsaylı insan tələfatına və dağıntılara gətirib çıxarmışdır. Ermənistan silahlı qüvvələrinin bu cür təxribatları indiyədək davam edir.

Digər tərəfdən, erməni tərəfi Azərbaycana qarşı çirkin əməllərinə haqq qazandırmaq üçün heç bir fitnəkarlıqdan çəkinmir, iştirakçısı olduğu Avrasiya İqtisadi Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi qurumların üzvlərini öz təxribatlarına cəlb etməyə çalışır. Erməni millətçiləri və onların havadarları Azərbaycan xalqına qarşı törədilmiş faciələri, o cümlədən Xocalı soyqırımını ört-basdır etmək və unutdurmaq, qondarma "erməni soyqırımı"nı qəbul etdirmək üçün beynəlxalq miqyasda apardıqları təbliğat kampaniyasını daha da genişləndirirlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini çətinləşdirən bu cür fəaliyyətin qarşısının alınması üçün göstərilən səylərin artırılması indiki dövrün ən aktual vəzifələrindən biridir. Bu sahədə parlamentin hər bir üzvünün də üzərinə vəzifələr düşür.

Azərbaycan Respublikasının Milli Məclisi yuxarıda şərh edilənləri nəzərə alaraq, **qərara alır:**

1. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınının Azərbaycan Respublikası Milli Məclisinin 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsi bir daha təsdiq edilsin.
2. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına bir vəzifə olaraq tapşırılsın ki, xarici ölkələrə səfərlər zamanı, o cümlədən beynəlxalq təşkilatların tədbirlərində iştirak edərkən son yüz ildən artıq dövrdə azərbaycanlıların məruz qaldıqları soyqırımı aktları, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin daha geniş yayılmasını təmin etsinlər, bu məqsədlə Milli Məclisin xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə etsinlər.
3. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarına tövsiyə edilsin ki, Xocalı şəhərində soyqırımı aktının törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilməsi və cinayət məsuliyyətinə cəlb olunması üçün görülən tədbirləri davam etdirsinlər.
4. Azərbaycan Respublikasının müvafiq dövlət və qeyri-dövlət qurumlarına, o cümlədən qeyri-hökumət təşkilatlarına tövsiyə edilsin ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların geniş yayılması, yalançı erməni təbliğatının ifşa edilməsi üçün səylərini birləşdirsinlər.
5. Xarici ölkələrin parlamentlərinə, beynəlxalq parlament təşkilatlarına müraciət edilsin ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınını soyqırımı cinayəti kimi tanısınlar.

**O.Əsədov,**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri**

*Bakı şəhəri, 24 fevral 2017-ci il*

# İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin Azərbaycan Respublikasına səfəri

## ◆ *Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı hüquq mühafizə sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu bildirib. Prezident İlham Əliyev İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətinin azərbaycanlı həmkarları ilə bu sahədə müxtəlif məsələlərlə bağlı aparacaqları danışıqların və fikir mübadiləsinin əməkdaşlıq üçün yeni imkanlar açacağına əminliyini ifadə edib. Ölkələrimiz arasında son vaxtlar müxtəlif səviyyələrdə keçirilən çoxsaylı təmaslara toxunan dövlətimizin başçısı prezidentlər səviyyəsində keçirilən görüşlərin əhəmiyyətini qeyd edib. Qarşılıqlı səfərlərin təşkilinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə bu səfərinin ədliyyə sahəsində əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Təxminən 23 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədi ötən dövr ərzində ölkəmizdə gedən böyük dəyişikliklərin onda dərin təəssürat yaratdığını vurğulayıb. Azərbaycanda gedən bu inkişafın bünövrəsinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayan Mustafa Purməhəmmədi Ulu Öndərin xatirəsini böyük ehtiramla yad edərək bildirib ki, dahi dövlət xadimi Heydər Əliyev Azərbaycan-İran əlaqələrinin genişləndirilməsi işinə də böyük önəm verib.

## ◆ Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət









Azərbaycana səfəri zamanı İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyəti fevralın 16-da Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstəsi qoyulub.

Sonra nümayəndə heyəti Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

M.Purməhəmmədi Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edib. Qonağa Şəhidlər Xiyabanının tarixi, şəhərdə aparılan quruculuq və abadlıq işləri barədə məlumat verilib.

## ◆ Ədliyyə Nazirliyində



**Mehriban dostluq və qonşuluq şəraitində Azərbaycan-İran əlaqələri müxtəlif sahələrdə uğurla inkişaf edir. Zəngin müqavilə bazasına söykənən bu münasibətlərdə hüquq əməkdaşlığı da xüsusi yer tutur. Ölkələrimiz hüquqi yardım, məhkumların verilməsi, təslimetmə üzrə dövlətlərarası müqavilələr əsasında səmərəli qarşılıqlı fəaliyyət həyata keçirir, eyni zamanda, 2004-cü ildə Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Memorandum imzalanıb.**

Əməkdaşlığın davamı olaraq fevralın 16-17-də İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədi rəhbərlik etdiyi nümayəndə heyəti









ilə Azərbaycanda səfərdə olub.

Səfər zamanı Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun və İranın ədliyyə naziri Mustafa Purməhəmmədinin görüşü keçirilib.

Ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərini vurğulayan Azərbaycanın naziri ikitərəfli əlaqələrin möhkəmlənməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin və İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneyinin müstəsna rollarını qeyd edib, dövlət başçılarımızın müntəzəm qarşılıqlı səfərlərinin bu əlaqələrin genişləndirilməsinə böyük təkan verdiyini bildirib. Həmçinin, hüquqi əlaqələrin inkişafından məmnunluq ifadə olunaraq qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi üçün geniş imkanların olduğu vurğulanıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə və ədliyyə, o cümlədən penitensiar sahədə aparılan genişmiqyaslı tədbirlər və yeniliklər barədə məlumat verib, dövlətimizin başçısının bu günlərdə imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ilə bu islahatların yeni mərhələyə keçdiyini qeyd edib. Həmçinin, Azərbaycan brendi olan və ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi "ASAN xidmət"in vətəndaş məmnunluğunu təmin edən fəaliyyətindən bəhs olunub.

Əvvəllər Azərbaycanda olduğunu, qardaş ölkəyə yenidən səfər etməsindən məmnunluğunu bildirən nazir M.Purməhəmmədi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul olunmasından şərəf duyduğunu, ötən dövrdə respublikamızda gedən böyük dəyişikliklərdən, hərtərəfli inkişafın, sabitliyin və təhlükəsizliyin təmin olunmasından şad olduğunu vurğulayıb, səmimi qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını ifadə edib.

Qonaq tarixən bir-birinə yaxın olan xalqlarımız arasında əlaqələrin müxtəlif, o cümlədən siyasi, iqtisadi, hüquqi sahələrdə günbəgün inkişafını vurğulayıb, iki ölkənin ədliyyə orqanlarının səmərəli qarşılıqlı fəaliyyətini qeyd edərək bu əlaqələrin genişləndirilməsi ilə bağlı niyyətini bildirib.

Nazir M.Purməhəmmədi Azərbaycanın ədliyyə və məhkəmə sahəsindəki nailiyyətlərinə, bu sahədə müsbət təcrübəsinə maraq göstərərək təqdir edib, öz ölkəsinin ədliyyə və məhkəmə-hüquq sistemi





*Yasamal Rayon Məhkəməsi ilə tanışlıq*

barədə məlumat verərək, təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edib.

Söhbət zamanı, həmçinin dünyada terrorizmə qarşı mübarizəyə toxunularaq Azərbaycanın erməni terrorizmindən əziyyət çəkdiyi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılıb, İran tərəfi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həllinə tərəfdar olduğunu, ölkəmizin haqlı mövqeyini dəstəklədiyini bildirib.

Sonra Azərbaycan və İran Ədliyyə nazirlikləri arasında hüquqi sahədə əməkdaşlığın genişləndirilməsini, o cümlədən insan hüquqları, hüquqi yardım, məhkumların verilməsi, ədliyyə işçilərinin və hakimlərin tədrisi, müxtəlif sahələr üzrə birgə tədbirlərin təşkili məsələlərini təşviq edən Birgə Bəyanat imzalanıb. Tərəflər sənədin əlaqələrimizin daha da inkişafına xidmət edəcəyinə əminliyini ifadə edib, media nümayəndələrinə müsahibə veriblər.

Görüşdə İranın ölkəmizdəki səfiri Cavad Cahangirzadə iştirak edib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi, habelə Azərbaycan-İran münasibətlərinə həsr olunmuş ekspozisiyalarla tanış olub, nümayəndə heyətinə müasir ədliyyə fəaliyyətini, həmçinin iki ölkə arasında hüquqi əlaqələri, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı materialları əks etdirən xüsusi jurnallar təqdim edilib.

Səfər çərçivəsində İran ədliyyə nazirinin bir sıra rəsmi görüşləri olub, həmçinin nümayəndə heyəti ölkəmizdə məhkəmə-hüquq islahatlarına maraq göstərərək Yasamal Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə informasiya sistemi, habelə "ASAN" xidmətin fəaliyyəti, eləcə də Bakının tarixi və mədəni abidələri, o cümlədən Heydər Əliyev Mərkəzi ilə tanış olub.

## ◆ *Ali Məhkəmədə*

**Fevralın 16-da İranın ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşüb.**



Görüşdə Ali Məhkəmənin sədri məhkəmə hüquq sahəsində həyata keçirilən tədbirlər, ölkəmizin məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə məlumat verib, Azərbaycan və İran ədliyyə orqanları arasında çox işgüzar əlaqələrin yarandığını, bu əlaqələrin ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini vurğulayıb.

Nazir Mustafa Purməhəmmədi iki ölkə arasında əməkdaşlığın böyük əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Qonaqlar Ali Məhkəmənin inzibati binası, məhkəmə tarixi muzeyi ilə tanış olub.

## Milli Məclisdə



**Fevralın 17-də Milli Məclisinin sədri Oqtay Əsədov İran İslam Respublikasının ədliyyə naziri Mustafa Purməhəmmədinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Sədr dövlət başçılarının müntəzəm qarşılıqlı səfərlərinin əlaqələrin genişləndirilməsinə böyük təkan verdiyini bildirib. "İran İslam Respublikası ilə əlaqələrimiz hərtərəfli inkişaf edir. Siyasi münasibətlərimiz yüksək səviyyədədir. Biz çox şadıq ki, ədliyyə sahəsində də yaxşı əlaqələrimiz mövcuddur", - deyə Oqtay Əsədov vurğulayıb.

İki ölkənin parlamentləri arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu bildirən sədr diqqətə çatdırıb ki, İran və Azərbaycan parlamentlərində işçi qrupları fəaliyyət göstərir. Azərbaycan ilə İran arasında hərtərəfli hüquqi bazanın olduğunu qeyd edən Oqtay Əsədov bildirib ki, ölkələrimiz arasında 125 sənəd imzalanıb.

İranın ədliyyə naziri ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. O, ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb. İslam ölkələri arasında həmrəyliyin vacibliyini qeyd edən nazir Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsinin önəmli addım olduğunu bildirib.

"İqtisadi sahədə də bizim əməkdaşlıq üçün əsaslı baza mövcuddur, yaxşı sənədlər imzalanıb. Ticarət mübadiləsi günbəgün artmaqda davam edir. İnfrastruktur layihələri sahəsində də yaxşı əməkdaşlıq var. İki ölkə arasında iqtisadiyyat, mədəniyyət, turizm, sənaye və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün böyük potensial mövcuddur", - deyə Mustafa Purməhəmmədi bildirib.

Qonaq siyasi sahədə iki ölkənin baxışlarının və fikirlərinin bir-birinə yaxın olduğunu diqqətə çatdırıb. Regional məsələlərdə mövqelərin üst-üstə düşdüyünü deyən nazir regional əməkdaşlıq sahəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə ötən il Bakıda keçirilən Rusiya, Azərbaycan, İran dövlət başçılarının görüşünün önəmli olduğunu vurğulayıb.

Söhbət zamanı, həmçinin dünyada terrorizmə qarşı mübarizədən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətlərindən bəhs olunub. İran tərəfi münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun həllinə tərəfdar olduğunu, ölkəmizin haqlı mövqeyini dəstəklədiyini bildirib.

Görüş zamanı Mustafa Purməhəmmədi ədliyyə və məhkəmə sahəsində yaxşı əməkdaşlığın olduğunu, eləcə də önəmli sənədlərin imzalandığını bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Görüşdə İranın ölkəmizdəki səfiri Cavad Cahangirzadə və ədliyyə nazirinin müavini Toğrul Musayev iştirak ediblər.

## ◆ Daxili İşlər Nazirliyində



**Fevralın 17-də İranın ədliyyə naziri Mustafa Purməhəmmədinin daxili işlər naziri Ramil Usubov ilə görüşü olub.**

Nazir R.Usubov xalqlarımız arasında çoxəsrlik tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu qeyd edərək möhkəm dostluq və qonşuluq münasibətlərinin təməlinin ümummilli lider Heydər Əliyev tərəfindən qoyularaq inkişaf etdiyini, ölkə Prezidenti İlham Əliyev tərəfindən həmin siyasi kursun uğurla davam etdirildiyini bildirib.

Həmçinin, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əlaqələrin son illər daha da möhkəmləndiyi, qurumun qonşu, eləjə də 40-dan artıq dövlətlərin analoji strukturları ilə ikitərəfli və çoxtərəfli formatda səmərəli əməkdaşlıq etdiyi, transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə və qaçaqmalçılığına qarşı mübarizənin yeni istiqamətlərinin müəyyənləşdirilməsinin və birgə səylərin zəruriliyi vurğulanıb, qarşılıqlı faydalı əlaqələrin ölkələrimizin və xalqlarımızın mənafelərinə, beynəlxalq təhlükəsizliyin təmini işinə xidmət edəcəyinə əminlil ifadə olunub.

İranın ədliyyə naziri uzun müddətdən sonra yenidən ölkəmizə səfər etməsindən, burada gedən böyük quruculuq işlərindən, respublikamızın dinamik inkişafından məmnunluğunu bildirib, regionda qeyri-sabitliyin, terrorun və ekstremizmin hökm sürməsi fonunda hər iki ölkədə sabitliyin, əmin-amanlığın təmin edilməsinin, məlumat və təcrübə mübadiləsinin bölgədəki təhlükəsizliyə müsbət təsir göstərəcəyini söyləyərək, İranın hüquq-mühafizə orqanlarının azərbaycanlı həmkarları ilə əməkdaşlığa hər zaman hazır olduğunu vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

## ◆ Qafqaz Müsəlmanları İdarəsində

**İran nümayəndə heyətinin fevralın 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ilə keçirilmiş görüşündə Azərbaycan ilə İran arasında mədəni-mənəvi əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb.**

Şeyxülislam Allahşükür Paşazadə İran ilə Azərbaycan arasında səmimi dostluq münasibətlərinin olduğunu, ulu öndər Heydər Əliyevin hər zaman İran ilə əlaqələrə çox böyük önəm verdiyini qeyd edib, Prezident İlham Əliyevin bu əlaqələrin inkişafını daim diqqətdə saxladığını vurğulayıb.

A.Paşazadə həmişə Azərbaycanın ərazi bütövlü-



yünü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin haqlı mövqeyini dəstəklədiyinə görə İran tərəfinə təşəkkürünü bildirib.

Nazir M.Purməhəmmədi ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif, o cümlədən iqtisadi və ticarət sahəsində dərinləşdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb, qarşılıqlı səfərlər zamanı ölkələrimiz arasında imzalanan sazişlərin önəmini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

### ◆ *“ASAN xidmət”lə tanışlıq*






**Səfər zamanı İran nümayəndə heyəti 5 saylı "ASAN xidmət" mərkəzi ilə tanış olub.**

Qonaqlara xidmətin məqsədləri və fəaliyyət istiqamətləri barədə məlumat verilib. Bildirilib ki, bu günədək 14 milyona yaxın vətəndaş müraciəti qeydə alınıb. "ASAN xidmət" BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülüb.

Nümayəndə heyəti "ASAN xidmət"in vətəndaş məmnunluğunu təmin edən fəaliyyətini maraq qarşılayaraq təqdir ediblər.

# Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukianinin Azərbaycana səfəri

### ◆ *Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət*





Fevralın 10-11-də Azərbaycanda səfərdə olan Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukianinin başçılıq etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstəsi qoyulub.





Sonra nümayəndə heyəti Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Xanım nazir Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edib. Qonağa Şəhidlər Xiyabanının tarixi, şəhərdə aparılan quruculuq və abadlıq işləri barədə məlumat verilib.

### ◆ *Ədliyyə Nazirliyində*

**Azərbaycan və Gürcüstan arasında dostluq və yaxın qonşuluq münasibətlərinə əsaslanan əlaqələr müxtəlif istiqamətlərdə, o cümlədən hüquqi sahədə uğurla inkişaf edir. İki ölkə arasında hüquqi yardım üzrə bağlanmış müqavilə və ədliyyənin müxtəlif sahələri üzrə imzalanmış bir sıra mühüm sənədlər əsasında səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.**



Əməkdaşlığın davamı olaraq fevralın 10-11-də Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukiani rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olub.

Səfər zamanı Ədliyyə Nazirliyində respublikamızın ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun və Gürjüstanın ədliyyə naziri xanım Tea Tsulukianinin görüşü olub.

Ölkələrimiz arasında səmərəli dostluq və əməkdaşlıq münasibətlərini vurğulayan nazir F.Məmmədov bu əlaqələrin inkişafında dövlət başçılarımızın xüsusi rolunu qeyd edib, mötəbər beynəlxalq konfrans və forumlarda görüşlərini xatırladıb, hüquqi əlaqələrin dərinləşdirilməsi üçün böyük perspektivlərin olduğunu vurğulayıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatları, o cümlədən hakimlərin Avropada ən şəffaf seçimi, elektron məhkəmənin tətbiqi, inzibati ədliyyənin fəaliyyəti barədə məlumat verib. Həmçinin, ədliyyə sistemində şəffaflığın təmin olunması, açıq hökumətin təşviqi, ictimai iştirakçılıq, habelə korrupsiyaya qarşı mübarizə tədbirlərindən, o cümlədən Azərbaycan brendi olan və ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi "ASAN xidmət"in vətəndaş məmnunluğunu təmin edən fəaliyyətindən bəhs edib.

Respublikamıza səfərindən məmnunluğunu ifadə edən nazir T.Tsulukiani dost ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə inkişafını, beynəlxalq təşkilatlarda daim bir-birini dəstəklədiyini vurğulayıb. Qonaq iki ölkənin ədliyyə orqanlarının hüquqi yardım və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyətini qeyd edərək bu əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib, Azərbaycanın ədliyyə və məhkəmə sahəsindəki nailiyyətlərinə, bu sahədə müsbət təcrübəsinə, o cümlədən elektron məhkəmənin tətbiqinə maraq göstərərək təqdir edib. Xanım nazir həmçinin, öz ölkəsinin ədliyyə və məhkəmə-hüquq sistemi, həyata keçirilən islahatlar barədə məlumat verərək qarşılıqlı fəaliyyətin genişləndirilməsinə hazır olduğunu, təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətini qeyd edib.

Görüşdə iki ölkənin ədliyyə qurumları arasında əməkdaşlığın inkişaf perspektivləri, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, mediasiya institutunun tətbiqi və digər maraq doğuran məsələlərə dair faydalı fikir mübadiləsi aparılıb.

Tədbirdə Gürcüstanın ölkəmizdəki səfiri Teymuraz Şaraşenidze iştirak edib.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Həmin gün xanım T.Tsulukianinin Milli Məclisdə, Xarici İşlər Nazirliyində və digər rəsmi görüşləri olub.

Səfər çərçivəsində Gürcüstan nümayəndə heyəti, həmçinin Azərbaycan brendi olan və vətəndaş məmnunluğunu təmin edən "ASAN" xidmətin fəaliyyəti, habelə Bakının tarixi və mədəni abidələri, o cümlədən Heydər Əliyev Mərkəzi ilə tanış olub.

## ◆ *Xarici İşlər Nazirliyində*

**Fevralın 10-da xarici işlər naziri Elmar Məmmədyarov Gürcüstanın ədliyyə naziri Tea Tsulukianin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüş zamanı dost və qonşu dövlətlər olan Azərbaycan və Gürcüstan arasında tərəfdaşlığın hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

Tərəflər ölkərimizin ədliyyə, penitensiar və notarial xidmətlər sahəsində uğurlu əməkdaşlığını və təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## Milli Məclisdə



**Fevralın 10-da Milli Məclisdə Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukiani və ölkəmizdə səfərdə olan Fransanın Baş naziri yanında dövlət islahatları və asanlaşdırma məsələləri üzrə dövlət katibi, hökumətin üzvü və Ekologist Partiyasının sədri Jean-Vincent Plase ilə görüş keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev və deputat Vüsal Hüseynov ilə keçirilmiş görüşdə həm Fransa, həm də qonşu Gürcüstanla mövcud olan dostluq münasibətlərindən danışılıb, parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğu diqqətə çatdırılıb. Bildirib ki, ölkələrimiz bir çox sahələrdə, o cümlədən əsası 2011-ci ildə qoyulmuş Açıq Hökumət Tərəfdaşlığı Platformasında əməkdaşlıqda maraqlıdır.

Azərbaycan Açıq Hökumət Tərəfdaşlığı (AHT) təşəbbüsünə ilk qoşulan ölkələrdən olub və təşəbbüsün əsas sənədi olan Bəyannaməyə imza atıb. AHT təşəbbüsünə qoşulan ölkələrin əsas öhdəlikləri hökumətlərin fəaliyyət bilgilərinin hər kəs üçün əlçatan olması, idarəetmədə vətəndaş iştirakçılığının genişləndirilməsi, dövlət idarəetməsində yüksək peşə etikasının tətbiqi, hökumətin daha hesabatlı və açıqlığı üçün yeni nəsil texnologiyaların tətbiq edilməsidir. Açıq Hökumət Tərəfdaşlığının ən önəmli prinsiplərindən biri isə hökumət və vətəndaş cəmiyyətinin əməkdaşlığıdır.

AHT-nin təsis olunmasından bir il sonra şəffaflığın artırılması, açıq hökumətin təşviqi ilə bağlı fəaliyyətin təkmilləşdirilməsi məqsədilə ölkəmizdə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Fəaliyyət Planı" və 2016-cı ildə "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" qəbul olunub.

Həmçinin, Azərbaycanda hökumətin AHT qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, vətəndaş cəmiyyətinin inkişafı sahəsində görülmüş işlər barədə geniş məlumat verilib, qarşıda dayanan vəzifələrdən danışılıb.

Qonaqlar Açıq Hökumət Tərəfdaşlığı Platformasında Azərbaycan tərəfindən koordinasiyanın gücləndirilməsi üçün geniş imkanların mövcud olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, bu platformada əməkdaşlıq AHT prinsiplərinin Azərbaycanda daha geniş yayılmasına və son nəticə olaraq şəffaflıq və iştirakçılıq sahəsində müstəqil vətəndaş cəmiyyəti ilə hökumət arasında dialoqa, vətəndaş cəmiyyəti təşəbbüslərini dəstəkləyən mexanizmlərin qurulmasına töhfə verəcək.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ali Məhkəmədə



**Fevralın 11-də ölkəmizdə səfərdə olan Gürcüstanın ədliyyə naziri Tea Tsulukianinin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşüb.**

Görüşdə Ali Məhkəmənin sədri Azərbaycan və Gürcüstan ədliyyə və məhkəmə orqanları arasında çox işgüzar əlaqələrin yarandığını, bu əlaqələrin ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini bildirib.

Gürcüstanın ədliyyə naziri T.Tsulukiani iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

Qonaqlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə tarixi muzeyinə baxıblar.

## "ASAN xidmət"lə tanışlıq







**Fevralın 11-də Gürcüstanın ədliyyə naziri xanım Tea Tsulukianinin rəhbərlik etdiyi nümayəndə heyəti 3 saylı "ASAN xidmət" mərkəzi və ASAN Radionun fəaliyyəti ilə tanış olub.**

Nümayəndə heyətini salamlayan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov "ASAN xidmət" mərkəzlərinin yaradılması, məqsədləri və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, şəffaflığın artırılması və müasir innovasiyaların tətbiqi baxımından "ASAN xidmət"in yaradılması ilə səmərəli dövlət idarəçiliyinin təmin edilməsi sahəsində ciddi nailiyyətlər əldə olunub.

Həmçinin, vətəndaş məmnunluğunu təmin edən "ASAN xidmət" mərkəzlərində bu günədək 14 milyona yaxın vətəndaş müraciətinin qeydə alındığı bildirilib və "ASAN xidmət"in Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görüldüyü diqqətə çatdırılıb.

Yaradılmış şərait və iş prinsipi ilə tanış olan nümayəndə heyəti "ASAN xidmət"in fəaliyyətini böyük maraqla qarşılayaraq təqdir edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə dinlənilib

**Fevralın 14-də Milli Məclisin spikeri Oqtay Əsədovun sədrliyi ilə yaz sessiyasının növbəti plenar iclası keçirilib.**

6 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra deputatlar beynəlxalq aləmdə cərəyan edən siyasi hadisələrə, günün aktual məsələlərinə dair rəy və təkliflərini bildiriblər.

Plenar iclasda öncə "Azərbaycan Respublikası Milli Məclisi komitəsinin üzvünün seçilməsi haqqında" məsələyə baxılıb. Parlamentin Daxili Nizamnaməsinin 36-cı maddəsinə uyğun olaraq deputat Jalə Əliyeva əmək və sosial siyasət komitəsinin üzvü seçilib.

Sonra ədliyyə nazirinin müavini Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətə dair illik məruzə ilə çıxış edib (Çıxışın tam mətni jurnalımızın bu sayında oxucuların diqqətinə təqdim olunur).

İclasda regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə illik məruzəyə dair fikirlərini açıqlayıb. Müzakirə zamanı deputatlar Fazil Mustafa, Elmira Axundova, Əli Məsimli, Siyavuş Novruzov, Fərəc Quliyev, Qənirə Paşayeva, Aydın Mirzəzadə, Çingiz Qənizadə, Kamran Bayramov, Fəzail İbrahimli və Adil Əliyev illik məruzəni və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2016-cı ildə gördüyü işləri müsbət dəyərləndirib, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflər irəli sürüblər.

Ədliyyə nazirinin müavini səslənmiş fikirlərə münasibət bildirib, deputatların təkliflərinin gələcək fəaliyyətdə nəzərə alınacağını qeyd edib, sualları cavablandırıb.

Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi qəbul edilib.

Fasilədən sonra, həmçinin bir sıra qanun layihələrinə baxılıb.












# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2016-cı il üzrə)

## *Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı*

**Hörmətli cənab sədr!**
**Hörmətli deputatlar!**

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq 2016-cı il üzrə illik məruzə diqqətinizə təqdim olunur.

Dünyada mürəkkəb və ziddiyyətli proseslərin yaşandığı, qlobal maliyyə və iqtisadi böhranın hökm sürdüyü şəraitdə Azərbaycan Respublikasında ulu öndər Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək 2016-cı ildə ölkəmizin müstəqilliyi daha da möhkəmlənmiş, dövlət idarəçiliyi sistemi təkmilləşdirilmiş, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu davam etmişdir. Ölkədə sabitlik və təhlükəsizlik qorunub saxlanılmış, sosial-iqtisadi tərəqqi təmin edilmiş, sahibkarlığın, qeyri-neft sektorunun inkişafı və əhalinin sosial rifahının yaxşılaşdırılması üzrə məqsədyönlü islahatlar aparılmışdır.

Gələcək iqtisadi inkişafı təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş strateji yol xəritələrində cari, orta və uzun müddətli dövr üçün iqtisadiyyatın əsas sektorları üzrə inkişaf hədəfləri müəyyən edilmiş, o cümlədən sosial-iqtisadi inkişafın təmin edilməsi ilə bağlı bələdiyyələrin öhdəliklərinin artırılması, onların təşəbbüslərinin dəstəklənməsi istiqamətində tədbirlər nəzərdə tutulmuşdur.

Dövlətimizin başçısının fəal və uğurlu xarici siyasətinin təzahürü olaraq Azərbaycanın beynəlxalq imici günbəgün yüksəlmiş, dünyanın əksər dövlətləri ilə uğurlu əməkdaşlıq həyata keçirilmiş, ölkəmiz çoxsaylı mötəbər beynəlxalq tədbirlərə, o cümlədən iqtisadi, siyasi, humanitar forumlara, möhtəşəm idman tədbirlərinə uğurla ev sahibliyi etmişdir.



Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi ilə bağlı sentyabrın 26-da keçirilmiş referendum ölkə həyatında ən önəmli siyasi hadisə olmuşdur. Demokratik, şəffaf şəraitdə keçirilmiş referendumda seçicilərin aktivliyi Konstitusiyaya edilmiş dəyişikliklərin aktuallığını göstərməklə yanaşı, dövlət quruculuğunda həyata keçirilən islahatlara olan yüksək marağın nəticəsidir. Referendumun nəticələri göstərdi ki, xalq ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətə inanır və onu dəstəkləyir.

Konstitusiyaya edilmiş dəyişikliklər dövlətin sosial, iqtisadi, siyasi həyatının ən mühüm sahələrində islahatlar aparılmasına, insan hüquq və azadlıqlarının daha etibarlı qorunmasına, qanunverici, icra və məhkəmə hakimiyyətlərinin işinin, yerli özünüidarənin səmərəliliyinin artırılmasına, dövlət quruculuğunun təkmilləşdirilməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq dövlət müstəqilliyinin bərpasının 25 illiyi bütün ölkədə böyük təntənə ilə qeyd edilmişdir. İldönümünün keçirilməsi müstəqil dövlət quruculuğu sahəsində ölkəmizin uğurlarının təsdiqi baxımından xüsusi əhəmiyyət daşımışdır.

Ən gənc təsisatlardan biri olan yerli özünüidarəetmə orqanları da bu illər ərzində özünəməxsus inkişaf yolu keçmiş, ölkəmizdə geniş vüsət alan hərtərəfli quruculuq işlərində, o cümlədən sosial, iqtisadi, ekoloji və digər layihələrin, çoxsaylı regional proqramların reallaşmasında mühüm rol oynamışdır.

Referendumla Konstitusiyaya əlavə edilmiş $146^1$-cı maddədə bələdiyyə qulluqçularının qanunazidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana və onların təminatının pozulmasına görə mülki məsuliyyətin müəyyən edilməsi yerli özünüidarəetmədə qanunçuluğun təmin edilməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərində mühəndis-kommunikasiya təminatı obyektlərinin normal fəaliyyətinin təmin olunması ilə bağlı bəzi tədbirlər haqqında" 30 dekabr 2016-cı il tarixli Fərmanı Bakı şəhəri üzrə ərazi planlaşdırılmasının, torpaqlardan istifadənin səmərəli təşkili və bu sahədə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi baxımından xüsusi önəm daşıyır.

Ölkəmizin sosial-iqtisadi inkişafı, demokratik ənənələrinin gücləndirilməsi istiqamətində qəbul edilmiş yeni dövlət proqramlarında da yerli özünüidarənin tərəqqisinə yönəlmiş tapşırıq və tövsiyələr verilmişdir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" Ədliyyə Nazirliyinin Kollegiya iclasında geniş müzakirə edilərək, bu

sənədin açıq hökumət prinsiplərinin tətbiqində, bələdiyyə qulluğuna qəbulun şəffaf keçirilməsi, bələdiyyə üzvləri və qulluqçularının peşəkarlığının yüksəldilməsi işində xüsusi əhəmiyyəti vurğulanmışdır. Milli Fəaliyyət Planının icrası üzrə iş planına uyğun olaraq nazirlik tərəfindən "Bələdiyyə üzvünün etik davranışı haqqında" qanun layihəsi hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Yerli özünüidarənin səmərəliliyinin artırılması, bələdiyyələrin işində qanunçuluğun təmin olunması məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən maarifləndirici tədbirlərə xüsusi diqqət verilmişdir.

Belə ki, 2016-cı ildə bələdiyyələr üçün aktual olan insan hüquqlarının qorunmasında bələdiyyələrin rolu, bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması, "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Qanundan irəli gələn vəzifələr, bələdiyyələrdə vətəndaşların müraciətləri üzrə kargüzarlığın və arxiv işinin təşkili mövzuları üzrə seminarlar keçirilmişdir.

Hesabat ilində, həmçinin bələdiyyə üzvləri və qulluqçuları üçün Ədliyyə Akademiyasında 20 tədris kursu, Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasında isə 5 kurs keçirilmiş, Naxçıvan Muxtar Respublikası bələdiyyələrinin də cəlb edildiyi bu kurslarda torpaqların idarə olunması, vergi xidmətinin təşkili, insan hüquq və azadlıqlarının təminatı sistemində yerli özünüidarəetmənin rolu və digər mövzular üzrə mühazirələr oxunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi muxtar respublikanın bələdiyyələri üçün 16 seminar təşkil etmiş, həmin seminarlara 810 bələdiyyə üzvü və qulluqçusu cəlb olunmuşdur.

2016-cı ildə Vergilər Nazirliyinin Tədris Mərkəzində yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması və ödənilməsi, Bələdiyyə Vergi İnformasiya Sistemi proqram təminatının iş proseduru mövzularında təlimlər keçirilmişdir.

Bələdiyyələrin milli assosiasiyaları tərəfindən hazırlanmış "Yerli vergi və ödənişlərin avtomatlaşdırılmış məlumat sistemi"nin tətbiqinə dair 8 zona seminarı, Bakı, Abşeron, Sumqayıt, Gəncə bələdiyyələrinin vergi mütəxəssisləri üçün təlimlər keçirilmişdir.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə "Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması" mövzusunda bələdiyyələrin büdcə komissiyasının sədrləri, baş mühasibləri və başqa aidiyyəti qulluqçular üçün 14 təlim keçirilmişdir.

Ümumilikdə bələdiyyələrin maarifləndirilməsi ilə bağlı il ərzində keçirilmiş 190 seminar, 19 təlim və 25 kursda 12 minədək bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir. Maarifləndirici tədbirlərin sayı ötən illə müqayisədə 87 %, iştirakçıların sayı isə 71 % artıq olmuşdur.

Bələdiyyələrin fəaliyyətində qanunçuluğun gücləndirilməsi və bələdiyyə nümayəndələrinin hüquqi biliklərinin artırılması məqsədi ilə aktual mövzular üzrə "Fiziki şəxslərin əmlak vergisi ilə bağlı sənədlər toplusu", "Yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxslərinin məsuliyyətini müəyyən edən normalar toplusu", "Bələdiyyələrdə vətəndaşların müraciətləri üzrə kargüzarlığın təşkili ilə bağlı", "Bələdiyyə qulluğuna qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər üçün bələdçi qaydalar", "Vergi yığımının təşkili işində yol verilmiş qanun pozuntuları barədə" və sair metodik vəsaitlər, tövsiyələr hazırlanmışdır.

Hesabat dövründə "Yerli özünüidarə haqqında" Avropa Xartiyası və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş prinsiplər və şərtlər rəhbər tutulmaqla bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi üzrə ardıcıl tədbirlər görülmüşdür.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət və bələdiyyələrə hüquqi, metodiki yardımın yaxşılaşdırılması Nazirliyin Kollegiya iclasında müzakirə edilmiş, həmçinin işin səmərəliliyinin artırılması üçün Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə və regional ədliyyə şöbələrinə əməli köməklik gücləndirilmişdir.

Hesabat ilində nazirliyə bələdiyyələrin fəaliyyəti ilə bağlı 2015-ci illə müqayisədə 4%-dən çox - 2.187 müraciət daxil olmuşdur.

Müraciətlərdən 1.947-nə baxılaraq əsaslandırılmış cavab verilmiş, aşkar edilmiş qanun pozuntuları görülmüş tədbirlər nəticəsində aradan qaldırılaraq müraciətlərdən 166-sı təmin edilmiş, təmin olunan müraciətlərin sayı 2015-ci illə müqayisədə 31 % artmışdır.

Ölkə Prezidentinin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu

zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilmişdir. Ədliyyə nazirinin vətəndaşların səyyar qəbulları zamanı bələdiyyələrin fəaliyyətinə dair verilmiş 27 müraciət qısa müddət ərzində araşdırılaraq onlardan bir qismi təmin edilmiş, digərlərinə əsaslandırılmış cavablar verilmişdir.

Bələdiyyələrin fəaliyyəti ilə bağlı vətəndaşların qəbulu işi təkmilləşdirilmiş, Bakıya gəlmədən bölgə sakinlərinin müraciətlərinə baxılması üçün virtual qəbul təcrübəsinin genişləndirilməsi vətəndaşlar tərəfindən razılıqla qarşılanmışdır.

40 müraciətə baxılması zamanı cinayət əlamətləri aşkar edildiyindən onların bir qismi üzrə toplanmış sənədlər araşdırılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna, digər qismi isə aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilmişdir.

Nazirliyə daxil olan 27 müraciət əsasında müvafiq bələdiyyələrdə araşdırmalar təyin edilmiş, bu zaman 18 bələdiyyənin fəaliyyətində daha ciddi qanun pozuntularına yol verilməsi müəyyən olunaraq toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir.

İstintaq orqanları tərəfindən bütövlükdə 12 fakt üzrə cinayət işi başlanılmış, o cümlədən 1 fakt üzrə məhkəmənin ittiham hökmü çıxarılmış, digərləri üzrə araşdırma davam edir.

Yol verilən cinayət xarakterli faktların çoxu torpaq qanunvericiliyinin pozulması və bələdiyyə büdcəsinə xüsusilə küllü miqdarda ziyan vurulması ilə bağlıdır. İnzibati araşdırma nəticəsində Bakı şəhəri Sabunçu və Qala bələdiyyələrində, Abşeron rayonu Qobu bələdiyyəsində, Qusar rayonu Samur bələdiyyəsində, İmişli rayonu Qaragüvəndikli bələdiyyəsində, Şamaxı rayonunun Dədəgünəş, II Cabanı, Keçməddin, Həmyəli və digər bələdiyyələrdə çox ciddi qanun pozuntuları aşkar edilmişdir.

2016-cı ildə inzibati nəzarət qaydasında baxılması üçün 62.228 bələdiyyə aktı daxil olmuşdur (2015-ci illə müqayisədə 5,6 % çox olmuşdur). Daxil olmuş aktlardan 58.923-ü qanunvericiliyə uyğun hesab edilmiş, 3.087 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün onları qəbul etmiş bələdiyyələrə müraciət olunmuşdur. Verilmiş təkliflər əsasında müvafiq bələdiyyələr tərəfindən 833 akt ləğv edilmiş, 559 akt dəyişdirilmişdir. Bələdiyyə aktlarının dəyişdirilməsi və ya ləğv edilməsi ilə bağlı məhkəmələrdə 28 iddia qaldırılmışdır. Onlardan 10-u təmin edilmiş, 18-nə isə baxılmaqdadır.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 2.257 bələdiyyə aktının ekspertizası keçirilmişdir.

Bələdiyyə aktlarının hüquqi ekspertizası nəticəsində 6.370 ha torpaq sahəsinin icarəyə, 12 ha istifadəyə, 305 ha torpaq sahəsinin ayrı-ayrı şəxslərin mülkiyyətinə qanunsuz olaraq verilməsi müəyyən edilmiş və həmin qərarlar nazirliyin təklifləri əsasında müvafiq bələdiyyələr və iddia ərizələri əsasında məhkəmələr tərəfindən ləğv edilmişdir. Bütövlükdə 8.359 ha torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınmışdır. Bələdiyyə mülkiyyətinə qaytarılmış torpaq sahələrinin həcmi 2015-ci illə müqayisədə 6 dəfə artmışdır.

Onlardan qanunsuz icarəyə və xüsusi mülkiyyətə verilmiş torpaqların əksəriyyəti (8.021 ha) kənd təsərrüfatı təyinatlı torpaq sahələri olmuşdur.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsində nəzərdə tutulmuş bələdiyyə aktlarını təqdim etmədiklərinə görə İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xəta haqqında 156 protokol tərtib edilərək müvafiq məhkəmələrə göndərilmişdir. Həmin protokollar əsasında 132 bələdiyyə sədri, o cümlədən təkrar pozuntulara yol verildiyinə görə 6 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb olunmuşdur.

1 mart 2016-cı il tarixdə qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsində mütləq təqdim olunmalı bələdiyyə aktlarının surətlərinin inzibati nəzarəti həyata keçirən orqana vaxtında təqdim edilməməsinə görə cərimənin artırılması və həyata keçirilmiş maarifçilik tədbirləri inzibati hüquq pozuntularının azalmasına əhəmiyyətli təsir etmişdir.

Bələdiyyə aktlarının ekspertizası zamanı və müraciətlərə baxılarkən ayrı-ayrı bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 4.246 tövsiyə göndərilmişdir. Həmin tövsiyələrdə bələdiyyənin fəaliyyətində yol verilən nöqsanlar və onların həlli yolları göstərilmiş, bunlar bələdiyyə iclaslarında müzakirə olunmuş, müvafiq tədbirlər görülərək inzibati nəzarəti həyata keçirən ədliyyə orqanlarına məlumat verilmişdir.

Nazirliyə daxil olmuş vətəndaş müraciətlərinin və bələdiyyə aktlarının təhlili nəticəsində bələdiyyələrin fəaliyyətində xarakterik hüquq pozuntuları, nöqsan və çatışmazlıqlar müəyyən

edilmişdir. Bunlardan bələdiyyə sədrləri tərəfindən təkbaşına qərarlar qəbul edilməsi, kənd təsərrüfatı təyinatlı torpaqların xüsusi mülkiyyətə verilməsi, hərrac və müsabiqə qaydaları pozulmaqla torpaqların icarəyə verilməsi və ya satılması, torpaqların icarəyə və ya xüsusi mülkiyyətə verilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanlarının rəylərinin alınmaması, bələdiyyə büdcəsinin qanunsuz xərclənməsi, yerli vergi və ödənişlərin yığılmasının təmin edilməməsi, yerli əhəmiyyətli sosial-iqtisadi inkişaf proqramlarının olmaması və sair qeyd etmək olar.

Yol verilmiş qanun pozuntuları və nöqsanların müəyyən edilərək qarşısının alınması üçün nazirlik tərəfindən bələdiyyələrdə torpaq sahələrinin ayrılması zamanı qanunvericiliyin tələblərinə əməl olunması vəziyyətinə dair ümumiləşdirmə aparılmış, bunun nəticəsi olaraq "Torpaq qanunvericiliyinin pozulması hallarının qarşısının alınması və kənd təsərrüfatı təyinatlı torpaqların mühafizəsi ilə bağlı" tövsiyə hazırlanaraq bələdiyyələrə göndərilmiş, hüquq pozuntularına qarşı profilaktikanın gücləndirilməsi məqsədi ilə regional ədliyyə qurumlarına zəruri metodiki köməklik göstərilmişdir.

Ötən il yerli özünüidarəetmə orqanları ilə iş sahəsində bələdiyyələrin milli assosiasiyaları fəal iştirak etmişlər. Onların təşəbbüsü ilə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi ilə bağlı referendumda "Bələdiyyə təşəbbüs qrupu" və "Bələdiyyə təşviqat qrupu" yaradılmış və bu qruplar səmərəli fəaliyyət göstərmişlər. Milli assosiasiyaların və Binəqədi qəsəbə bələdiyyəsinin təşkilatçılığı ilə Litva, Latviya və Estoniya respublikalarının səfirliklərinin nümayəndələrinin iştirakı ilə "Multikulturalizmin inkişafında bələdiyyələrin rolu" mövzusunda konfrans təşkil olunmuş, assosiasiyaların ümumi yığıncaqları və bir sıra maarifçilik tədbirləri keçirilmişdir.

Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyəsinə uyğun olaraq milli assosiasiyaların təşəbbüsü ilə 31 oktyabr - 6 noyabr tarixdə "Yerli demokratiya həftəsi", 14-15 noyabr tarixdə isə Şəmkir şəhərində "Bələdiyyələrin maliyyə və iqtisadi potensialının gücləndirilməsi mövzusunda konfrans keçirilmiş, konfransın işində Milli Məclisin Regional məsələlər komitəsinin rəhbərliyi, deputatlar, aidiyyəti nazirliklərin nümayəndələri iştirak etmiş, mövzu ətrafında səmərəli müzakirələr aparılmış, təkliflər dinlənilmişdir.

Yerli özünüidarəetmə sahəsində təcrübə mübadiləsi məqsədilə milli assosiasiyaların təşkilatçılığı ilə bir qrup bələdiyyə sədri Latviya və Litvada səfərdə olmuş, bu ölkələrin bələdiyyələrinin təcrübəsini öyrənmişlər. Bununla yanaşı, Litva Respublikasının yerli özünüidarə orqanlarının təmsilçiləri milli assosiasiyaların dəvəti ilə ölkəmizə səfər etmişlər.

Yerli özünüidarə məsələləri ilə bağlı beynəlxalq əməkdaşlığa önəm verilərək Avropa Şurası və Avropa İttifaqının bir sıra tədbirlərində Ədliyyə Nazirliyinin əməkdaşları, bələdiyyələrin milli assosiasiyalarının və bələdiyyələrin nümayəndələri iştirak etmişlər.

**Hörmətli deputatlar!**

Bələdiyyələrin fəaliyyətinin yaxşılaşdırılması bu sahədə qanunvericiliyin daha da təkmilləşdirilməsini zəruri edir. Torpaq qanunvericiliyinin pozulması hallarının qarşısının alınması məqsədi ilə "Bələdiyyələrin fəaliyyətinə İnzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq olaraq aşağıdakı təklifə baxılması xahiş olunur:

- bir çox bələdiyyələr tərəfindən qanunvericiliyin tələbləri pozulmaqla məhkəmədən kənar, birtərəfli qaydada icarə müqavilələrinin ləğv edilməsi barədə qərarlar qəbul edilir. Torpaq Məcəlləsinin 73 və 75-ci maddələrində torpaq sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququna xitam verilməsinin əsasları müəyyən edilsə də, həmin maddələrlə Mülki Məcəllənin oxşar münasibətləri tənzimləyən normaları arasında ziddiyyətlərin olması qanunun tətbiqini çətinləşdirir, bir sıra hallarda bələdiyyələr tərəfindən qanunsuz qərarlar qəbul edilməsinə şərait yaradır. Misal üçün, hüquqi şəxsin fəaliyyətinə xitam verildikdə və ya icarəçi torpaq sahəsindən könüllü imtina etdikdə icarə müqaviləsinə məhkəmə qaydasında xitam verilməsi qaydası uzunmüddətli istifadəyə və ya icarəyə verilmiş, ancaq istifadə olunmayan min hektarlarla torpaq sahələrindən səmərəli istifadə imkanlarını çətinləşdirir. Ona görə də Torpaq Məcəlləsinin 73 və 75-ci maddələrinə yenidən baxılması məqsədəuyğundur.

Yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin fəaliyyətində qanunçuluğun gücləndirilməsi istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

*Diqqətinizə görə təşəkkür edirəm.*

# Ölkə Prezidentinin tapşırıqları təxirəsalınmadan icra edilir





**Fevralın 15-də ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə keçirilmiş nazirliyin geniş Kollegiya iclasında dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamından irəli gələn vəzifələr müzakirə olunub.**




Tədbirdə çıxış edən nazir ölkədə aparılan hüquq islahatları çərçivəsində ədliyyə, xüsusilə penitensiar sistemin inkişafı, cəza-icra mexanizmlərinin təkmilləşdirilməsi sahəsində strateji prioritetləri müəyyən edən proqram xarakterli Sərəncamın müstəsna əhəmiyyətini qeyd edib, bu mühüm sənədin dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığını daim bəyan edən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin humanist siyasətinin, insan hüquqlarının daha etibarlı təmin olunmasına qayğılı münasibətinin təzahürü olduğunu vurğulayıb.

Qeyd olunub ki, dövlətimiz cəmiyyətin həssas qruplarına daxil olan məhkumların hüquqlarının qorunması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması, onların azad cəmiyyətə tam hüquqlu üzv kimi qayıdışı, sosial reabilitasiyası məqsədilə ardıcıl tədbirlər görür. Təqsirləndirilən şəxslərin və məhkumların yaşayış yerlərinə yaxın ərazilərdə cəza çəkməsi üçün paytaxtımızda və respublikanın müxtəlif regionlarında yeni penitensiar komplekslər inşa olunaraq istifadəyə verilir. Həmçinin, bu sahədə şəffaflığa xüsusi önəm verilərək səmərəli ictimai iştirakçılıq, o cümlədən məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmasında geniş tətbiq olunur.

Həmçinin bildirilib ki, Ali Məhkəmə tərəfindən həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə təcrübəsi ümumiləşdirilib və əhatəli qərar qəbul edilib, məhkəmələrə bu məsələyə həssaslıqla yanaşılması, bu zaman İnsan hüquqları üzrə Avropa Konvensiyası və Avropa Məhkəməsinin presedentlərinin nəzərə alınması, cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun olaraq müstəsna hallarda həbsin yalnız digər alternativ tədbirlər mümkün olmadığı halda tətbiqi tövsiyə edilib.

Lakin həyata keçirilən tədbirlərə baxmayaraq bu sahələrdə çatışmazlıqlar və həllini gözləyən problemlər qalmaqdadır. Belə ki, məntəqə tipli cəzaçəkmə müəssisələrinin normal fəaliyyəti təmin olunmur, ictimai işlər cəzasının icrası prosesində çətinliklər yaranır, həmçinin cəzanı icra edən orqan və müəssisələrdə müasir İKT-lərin imkanlarından kifayət qədər istifadə edilmir. Eyni zamanda, həbsin müstəsna qətimkan tədbiri olmasına baxmayaraq ibtidai istintaq və məhkəmə icraatı zamanı onun seçilməsinə üstünlük verilir, alternativ qətimkan tədbirlərinə lazımi diqqət yetirilmir.

Dövlət başçısının Sərəncamı bu sahədə fəaliyyətin müasir dövrün tələbləri səviyyəsində qurulmasına, səmərəli idarəetmənin təşkilinə, mövcud nöqsanların aradan qaldırılmasına, korrupsiyanı istisna edən şəraitin təmin edilməsinə, müasir İKT-lərin imkanlarından geniş istifadə olunmasına xidmət etməklə kompleks institusional,

qanunverici və praktiki tədbirlərin görülməsini nəzərdə tutur. Bununla bağlı Ədliyyə Nazirliyinə və digər aidiyyəti qurumlara çoxsaylı tapşırıqlar və tövsiyələr verilib.

İclasda Sərəncamın icrasının təşkili üzrə görülən işlərə toxunulub, bu məqsədlə geniş işçi qrupu yaradılıb, verilən tapşırıqların vaxtında, mütəşəkkil və dürüst icrası ilə bağlı konkret tədbirlər müəyyən edilib.

Eyni zamanda, penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, o cümlədən məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın qanunvericiliyə uyğun çəkilməsi və məhkumlar tərəfindən rejim qaydalarına ciddi riayət olunması, bu sahədə korrupsiyaya şərait yaradan və digər neqativ halların, habelə ictimai işlər cəzasının formal icrası təcrübəsinin qarşısının alınması, bu və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təmin edilməsi, cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması, penitensiar xidmətin yüksək peşəkar kadr korpusunun formalaşdırılması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verilib. Qeyd olunub ki, bu sahədə tədbirlərin icrası barədə hər altı aydan bir ölkə Prezidentinə məlumat verilməlidir.

İclasda dövlət başçısının tapşırığına uyğun olaraq cinayət-hüquq siyasətinin liberallaşdırılması, cinayətlərin dekriminallaşdırılması, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəzaların səmərəliliyinin artırılması üzrə aidiyyəti göstərişlər verilib.

Həmçinin Sərəncama əsasən müvafiq cəzaların icrasına effektiv nəzarətin təşkili məqsədilə nazirliyin Probasiya xidmətinin yaradılması ilə bağlı məsələlər müzakirə olunub.

Ölkəmizdə bu yeni institutun təşviqi ilə bağlı Avropa İttifaqı ilə layihə həyata keçirildiyi, nazirlik tərəfindən beynəlxalq təcrübənin öyrənildiyi, o cümlədən elektron nəzarət vasitələrinin, xüsusilə "elektron qolbaq"ın ölkəmizdə tətbiqi imkanları ilə bağlı təkliflərin hazırlandığı qeyd edilib və kollegiyada "elektron qolbaq"ların funksionallığına, tətbiqi qaydalarına dair təqdimat keçirilərək həmin avadanlığın nümunələri nümayiş etdirilib.

Eyni zamanda, şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi, "Cəza çəkən məhkumlar və həbs edilmiş şəxslər" informasiya sisteminin təşkili, mediasiya institutunun tətbiqi və digər qarşıda duran vəzifələrə dair konkret tədbirlər müəyyən edilib.

İclasda azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin cəzasının qalan hissəsinin çəkilməsi üçün ölkəmizə qəbul edilməsi işinin təkmilləşdirilməsi məsələsi də müzakirə olunub, müvafiq icraat qaydalarına, habelə digər normativ sənədlərə baxılaraq təsdiq edilib. Həmçinin, bir sıra qeyri-hökumət təşkilatları dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri Ucar rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq fevralın 13-də ədliyyə naziri Fikrət Məmmədov Ucar rayonu Heydər Əliyev Mərkəzində Ucar, Göyçay və Ağdaş rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri yerli məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, hakimlər və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı fevralın 10-da yeni qəbul olunmuş proqram xarakterli Sərəncamından irəli gələn vəzifələri müşavirə iştirakçılarının nəzərinə çatdırıb, sənədin insan hüquqlarının etibarlı təmin olunmasında müstəsna əhəmiyyətini qeyd edərək vaxtında, mütəşəkkil və dürüst icrası ilə bağlı konkret tapşırıqlar verib.




Müşavirədə, həmçinin dövlət başçısının məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssaslıq və qayğı ilə yanaşılması qeyd olunub.

Eyni zamanda, şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin təmin olunmasının vacibliyi, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi qeyd olunaraq aidiyyəti tövsiyə və tapşırıqlar verilib.

# Məhkəmə-Hüquq Şurasının geniş iclası

**Fevralın 7-də Məhkəmə-Hüquq Şurasının bütün apellyasiya məhkəmələri sədrlərinin və hakim assosiasiyaları rəhbərlərinin iştirakı ilə geniş iclası keçirilib.**

İclasda ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib. Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov dünyada baş verən iqtisadi böhran və təlatümlərə baxmayaraq ötən il dahi öndərin dövlət inkişafı kursunun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini, qətiyyətli iqtisadi islahatlar nəticəsində qlobal böhranın ölkəmizə təsirinin minimuma endiyini, iri həcmli sosial layihələrin uğurla icra edildiyini diqqətə çatdırıb. Milli Ordumuzun ötən ilin aprel ayında düşmən üzərində qələbəsi və azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpasına başlanılmasının hər kəsdə böyük ruh yüksəkliyi yaratdığı bildirilib.

Qeyd olunub ki, ötən il Məhkəmə-Hüquq Şurasının iclaslarında ədalət mühakiməsinin səmərəliliyinin artırılması və işin keyfiyyətinin yüksəldilməsi, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və məsuliyyət hissinin artırılması, korrupsiya, süründürməçilik və digər neqativ halların aradan qaldırılması, habelə hakimliyə namizədlərin seçimi ilə bağlı bir çox məsələlərə baxılaraq konkret qərarlar qəbul edilib, bu tədbirlər Şuranın internet səhifəsində (jlc.gov.az) və mətbuatda geniş işıqlandırılıb.

Mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə hazırlanmış mühüm qanunvericilik layihələri Şuranın müzakirəsinə çıxarılıb. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən məhkəmə sisteminin müstəqilliyinin etibarlı təmini və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən olunması ilə bağlı Məhkəmə-Hüquq Şurasının üzərinə əlavə vəzifələr qoyulub, məhkəmə hakimiyyətinin özünüidarə səlahiyyətləri genişləndirilib.

Məhkəmə səhvlərinin azaldılmasında hakimlərin tədrisinin əhəmiyyəti nəzərə alınaraq bütün hakim korpusunu əhatə edən silsilə təlimlər təşkil olunub, mövcud pozuntular və onların aradan qaldırılması, hakimlərin davranışı, məhkəmə idarəçiliyi, sənədlərin keyfiyyətli tərtibi ilə bağlı mövzuların tədrisinə üstünlük verilib.

Ötən il hakimliyə namizədlərin növbəti seçimi təşkil edilib. Nüfuzlu beynəlxalq təsisatlar tərəfindən örnək kimi göstərilən seçim qaydasına uyğun olaraq namizədliyini irəli sürən 800-dən çox hüquqşünasla şəffaf prosedurlar əsasında, çoxsaylı beynəlxalq və yerli müşahidəçilərin iştirakilə test üsulu ilə, habelə yazılı və şifahi imtahanlar keçirilib. İmtahanlarda müvəffəqiyyət qazanmış 126 nəfər yüksək hazırlıqlı hüquqşünas hakim vəzifələrinə hazırlanmaları üçün 1 illik tədris kursuna cəlb ediliblər.

Kursun proqramı müasir tədris metodu və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb.





Hazırda davam edən kurs zamanı insan haqlarının etibarlı qorunması, məhkəmə etikası, qərarların tərtibi, qanunvericiliyin yenilikləri və digər aktual məsələlərə dair mövzular təcrübəli hakimlər və mütəxəssislər tərəfindən tədris olunur, namizədlərin məhkəmələrdə staj keçməsi, xarici dövlətlərdə, Avropa Məhkəməsində olmaqla qabaqcıl beynəlxalq təcrübələri öyrənməsi nəzərdə tutulur.

Ədalət mühakiməsinin səmərəsinin artırılmasında müasir məhkəmə infrastrukturu yaradılmasının əhəmiyyəti nəzərə alınaraq 2016-cı ildə Dünya Bankı ilə birgə layihələr çərçivəsində 6, dövlət büdcəsi hesabına isə 4 yeni, müasir məhkəmə kompleksi və binalarının tikintisi davam etdirilib, digər məhkəmə binalarının müasirləşdirilməsi üzrə zəruri tədbirlər görülüb. Mülki dövriyyənin inkişafı, məhkəmələrə əlçatanlığın asanlaşması və insanların etimadının nəticəsidir ki, 2016-cı ildə mülki sahə üzrə məhkəmələrə müraciətlərlərin sayı 45%-dək çoxalaraq, 470 mini ötüb (yeni məhkəmə sisteminin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə 20 dəfədən çox). Birinci instansiya məhkəmələrində mülki xarakterli iddiaların 96,8%-i, inzibati mübahisə üzrə iddiaların isə 84.4%-i təmin edilib.

Mülki xarakterli işlər üzrə yekun qərarların 98,5%-nin, inzibati işlər üzrə qərarların isə təxminən 90%-nin dəyişdirilməyərək sabit qalması hüquqların məhkəmə müdafiəsinin real göstəricisi olub.

İclasda həmçinin, Şuranın yeni qanunvericilikdən irəli gələn vəzifələri müzakirə edilib, 2017-ci ildə səlahiyyət müddəti başa çatan 130-dan çox hakimin fəaliyyətinin prinsipial qiymətləndirilməsi ilə bağlı konkret tapşırıqlar verilib. Ölkə başçısının korrupsiya ilə qəti mübarizə aparılması, məhkəmə qərarlarının ədalətliliyi, qərəzli yanaşmanın aradan qaldırılması, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması ilə bağlı tapşırıqları diqqətə çatdırılaraq, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının qətiyyətlə alınmasının vacibliyi vurğulanıb.

Qeyd olunub ki, ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara, korrupsiyaya şərait yaradan və digər neqativ hallara yol verdiklərinə görə 6 hakimin fəaliyyəti qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, 12 hakim intizam məsuliyyətinə cəlb olunub, o cümlədən 2 nəfərin tutduğu vəzifədən azad olunması barədə qərar qəbul edilib.

Tədbirdə çıxış edən Ali Məhkəmənin sədri Ramiz Rzayev və digər Şura üzvləri məhkəmə fəaliyyətinin təkmilləşməsi, vahid məhkəmə təcrübəsinin və ədalətli cəza siyasətinin formalaşması məqsədilə aparılan təhlillərin və cinayət qanunvericiliyinin humanistləşdirilməsi məsələlərinin aidiyyəti qurumlarla birgə müzakirəsinin, məhkəmə proseslərində müasir texnoloji yeniliklərin tətbiqinin zəruriliyini qeyd ediblər. İnsan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında hakimlərin yüksək məsuliyyət daşıdığı diqqətə çatdırılıb, bu mənada həbs qətimkan tədbirinin seçilməsinə xüsusilə həssas yanaşılmasının, yuxarı məhkəmələr tərəfindən işlərə baxılarkən aşkar edilən korrupsiya ilə əlaqədar hüquqpozmalara və digər neqativ hallara prinsipial münasibət bəslənilməsinin vacibliyi bildirilib.

Şurada həmçinin, qanunvericiliyin tələblərinin pozulmasına və korrupsiyaya şərait yaradan hallara yol verilməsinə görə Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Mahir Niftəliyevin tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi qərara alınıb, Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Səyyad Qafariyə töhmət verilib, məhkəmənin digər hakimləri Elman Rəhimov və Lətifə Məmmədovaya, Bakı Apellyasiya Məhkəməsinin hakimi İsmayıl Vəliyevə, Masallı Rayon Məhkəməsinin hakimi Anar Alməmmədova, İmişli Rayon Məhkəməsinin hakimi Ülvi Qənbərova irad tutulub.

# Ədliyyə Nazirliyində görüşlər




**Fevralın 9-da ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının hüquqi işlər və insan hüquqları komitəsinin Azərbaycan üzrə məruzəçisi Alan Desteks ilə görüşüb.**

Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlığın qeyd olunduğu görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qanunun aliliyinin, insan hüquqlarının təmin olunması üzrə görülən işlər, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyi, hakimlərin Avropada örnək kimi dəyərləndirilən ən şəffaf seçimi barədə məlumat verilib, Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı çərçivəsində müxtəlif sahələr üzrə mühüm layihələrin həyata keçirildiyi vurğulanıb.

Ölkəmizdə gedən demokratik proseslər, o cümlədən məhkəmə-hüquq sistemindəki islahatlar A.Desteks tərəfindən maraqla qarşılanıb, qanunvericiliyin təkmilləşdirilməsi, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qərarlarının icrası, məhkumların saxlanma şəraiti, beynəlxalq təşkilatların Azərbaycanla bağlı hesabatları ətrafında faydalı fikir mübadiləsi aparılıb, habelə açıq hökumətin təşviqi, vətəndaş cəmiyyətinin inkişafı və digər maraq doğuran məsələlər müzakirə olunub.

Söhbət zamanı, həmçinin dünyada terrorizmə qarşı mübarizəyə toxunularaq Azərbaycanın erməni terrorizmindən əziyyət çəkdiyi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılıb.

Tədbirdə ölkəmizin AŞPA-da daimi nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov iştirak edib.

Qonaq Nazirlikdə ədliyyə tarixi muzeyi ilə tanış olub.

**Fevralın 17-də ədliyyə naziri Fikrət Məmmədov Azərbaycanda səfərdə olan İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) prezidenti Mikola Qnatovski və Komitənin digər təmsilçiləri ilə görüşüb.**

Avropa Şurası və onun struktur qurumları ilə




səmərəli əməkdaşlığı vurğulayan nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarının inkişafı çərçivəsində penitensiar sistemdə aparılan islahatlar, o cümlədən CPT-nin tövsiyələri nəzərə alınmaqla qanunvericiliyin təkmilləşdirilməsi, təqsirləndirilən şəxslərin və məhkumların hüquq və imtiyazlarının genişləndirilməsi, infrastrukturun müasirləşdirilməsi, saxlanma şəraitinin və tibbi təminatının yaxşılaşdırılması barədə məlumat verib.

Dövlət başçısı tərəfindən bu günlərdə cəza siyasətinin humanistləşdirilməsinə dair yeni proqram xarakterli Sərəncamın imzalandığını diqqətə çatdıran nazir bu mühüm sənədin müstəsna əhəmiyyətini qeyd edərək penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi üzrə strateji prioritetləri müəyyən etdiyini və artıq onun icrasına başlanıldığını vurğulayıb. Bildirilib ki, Sərəncama əsasən cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi, cinayətlərin dekriminallaşdırılması, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəzaların səmərəliliyinin artırılması, o cümlədən Probasiya xidmətinin yaradılması, elektron nəzarət vasitələrinin tətbiqi və digər kompleks tədbirlərin görülməsi nəzərdə tutulur.

Ölkəmizlə əməkdaşlığın Avropa Komitəsi üçün prioritet olduğunu qeyd edən M.Qnatovski qarşılıqlı fəaliyyətin genişləndirilməsi ilə bağlı niyyətini bildirib. O, Azərbaycan Prezidentinin Sərəncamı ilə tanış olduğunu söyləyərək onu yeni cəza siyasətinin əsas təməl daşı kimi dəyərləndirib, sənədin mahiyyətinin Komitənin məqsədləri ilə üst-üstə düşdüyünü, penitensiar sistemin daha da təkmilləşməsinə, məhkumların hüquqlarının etibarlı qorunmasına xidmət edəcəyini vurğulayıb.

CPT prezidenti Komitənin Azərbaycanla bağlı hesabatına toxunaraq əsas tərəfdaş olan Ədliyyə Nazirliyi ilə səmərəli qarşılıqlı fəaliyyəti, CPT-nin ötən ilki monitorinqi zamanı verdiyi tövsiyələrin icrasına çevik reaksiya verilməsini və aşkar olunan çatışmazlıqların qısa müddətdə aradan qaldırılmasını müsbət qiymətləndirib.

Görüşdə, həmçinin həllini gözləyən problemlərə toxunulub, müəyyən təkliflər irəli sürülüb və qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

# Ölkəmiz beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirak edir



**Dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Ölkəmiz 140 dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim iştirak edir.**

Cari il fevralın 27-28-də Qətərin paytaxtı Doha şəhərində Assosiasiyanın rəhbər orqanı olan İcraiyyə Komitəsinin iclası keçirilib. Tədbirdə qurumun vitse-prezidenti, ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov iştirak edib.

Tədbirdə mühüm təşkilati məsələlər, xüsusilə Assosiasiyanın Konstitusiyasına dəyişikliklərin edilməsi, qurumun gələcək fəaliyyəti və bu barədə IAACA-nın bütün üzvlərinə tövsiyələrin hazırlanması, beynəlxalq əlaqələrinin gücləndirilməsi müzakirə olunub, təşkilatın yeni Baş katibinin seçilməsi məsələsinə baxılıb.

Müzakirələr zamanı F.Məmmədov tərəfindən çıxışlar edilərək Azərbaycanda dövlət siyasətinin prioriteti olan korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirləri barədə məlumat verilib, Azərbaycan tərəfindən aparılan beynəlxalq antikorrupsiya internet şəbəkəsinin bu qlobal bəla ilə mübarizəyə mühüm töhfə verdiyi bildirilib, habelə təşkilatın inkişafına və antikorrupsiya əməkdaşlığın genişləndirilməsinə dair bir sıra təkliflər irəli sürülüb.

İclas çərçivəsində Assosiasiyanın prezidenti - Qətərin Baş prokuroru Dr. Ali Al Marri ilə keçirilmiş ikitərəfli görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, bu əlaqələrin möhkəmlənməsində dövlət rəhbərlərinin qarşılıqlı səfərlərinin xüsusi rolu qeyd olunmaqla həmin tarixlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Qətərə rəsmi səfərinin və imzalanmış sənədlərin əhəmiyyəti vurğulanıb.



*IAACA-nin prezidenti, Qətərin Baş prokuroru Dr. Ali Al Marri ilə görüş*

Söhbət zamanı ədliyyə və prokurorluq sahəsində qarşılıqlı fəaliyyətin perspektivlərinə, korrupsiyaya qarşı qlobal mübarizəyə və əməkdaşlığa dair faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbir çərçivəsində bir sıra digər dövlətlərin hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşlər keçirilərək antikorrupsiya sahəsində birgə fəaliyyətə dair faydalı danışıqlar aparılıb.

Keçirilən görüşlərdə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, xüsusilə Xocalı soyqırımının acı həqiqətləri həmsöhbətlərin diqqətinə çatdırılıb.

# Gənclər Günü ədliyyə orqanlarında qeyd olunub



**Ümummilli lider Heydər Əliyevin Azərbaycan gəncliyinə bəxş etdiyi 2 fevral - Gənclər Günü artıq 20 ildir ki, ölkəmizdə geniş qeyd olunur. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət gənclər siyasəti yeni nəslin hərtərəfli inkişafına, onların ölkə həyatının bütün sahələrində fəal iştirakına əlverişli imkanlar yaradır.**

Ədliyyə orqanlarında geniş təmsil olunan gənclərə xüsusi qayğı ilə yanaşılır, onların işlə təminatı daim diqqətdə saxlanılaraq müasir İKT-lər tətbiq olunmaqla və ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəffaf seçimlər əsasında qulluğa qəbul olunurlar. Hazırda ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edir və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Əlamətdar gün münasibətilə ədliyyə orqanlarında silsilə tədbirlər keçirilib, o cümlədən bu ərəfədə sınaq müddətini bitirən 40-dək gənc daimi qulluğa qəbul olunub, onlara ilk xüsusi rütbələr verilib, gənc ədliyyə işçiləri tərəfindən mətbuatda çıxışlar edilib, nazirlikdə Gənclər Gününə həsr olunmuş foto-slaydlar nümayiş etdirilib.

Nazirliyin rəhbərliyinin gənc ədliyyə işçiləri və bu ərəfədə fəaliyyətə cəlb olunmuş bir qrup könüllülərlə keçirilmiş görüşlərində ölkəmizdə dövlət gənclər siyasəti ilə bağlı mükəmməl qanunvericilik bazasının yaradıldığı, dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq, intellektual və peşəkar bacarıqlara yiyələnən Azərbaycan gəncliyinin formalaşdığı qeyd olunub. Tədbirlərdə Ulu Öndərin gənclərə qayğısından, dövlət başçısı tərəfindən müasir tələblərə cavab verən gənc nəslin yetişməsi üzrə həyata keçirilən işlərdən, o cümlədən könüllülük institutunun cəmiyyətimiz üçün səmərəsindən bəhs olunub.

Ölkə Prezidentinin regionların sosial-iqtisadi inkişafına dair iclasda proqram xarakterli çıxışında məmur-vətəndaş münasibətləri, neqativ hallara qəti son qoyulması, hər bir məmurun əsas vəzifəsinin xalqa xidmət göstərməsi, etik davranış qaydalarına dönmədən riayət etmələri, təvazökar olmaları ilə bağlı tələbləri diqqətə çatdırılaraq vətəndaşlara hər zaman qayğılı münasibət göstərilməsi və məmnunluğun yüksəldilməsi vurğulanıb.

Həmçinin, gənclərə vətənpərvər və milli ruhda fəaliyyət göstərmələri, bilik və bacarıqlarını ölkəmizin inkişafı naminə səfərbər etmələri, ictimai maraq doğuran məsələlərdə hər zaman dövlətçilik mövqeyindən çıxış etmələri, vəzifələrini layiqincə yerinə yetirmələri barədə tövsiyələr verilib.

Gənc ədliyyə işçiləri və könüllülər ölkə rəhbərliyi tərəfindən Azərbaycan gəncliyinin inkişafı üçün hər cür şəraitin yaradıldığını dərin minnətdarlıq hissi ilə vurğulayaraq, ölkəmizin tərəqqisinin və əmin-amanlığının təmin olunması və hüquqi dövlətin inkişafı naminə dövlət başçısına layiqli yardımçı olacaqlarını, gələcək fəaliyyətlərində üzərlərinə düşən vəzifələrini vicdanla və məsuliyyətlə icra etmək üçün qüvvə və bacarıqlarını əsirgəməyəcəklərini söyləyiblər.

Könüllülər nazirlikdə Heydər Əliyev və Ədliyyə tarixi muzeyləri ilə tanış olublar.

Gənclər günü Ədliyyə Nazirliyinin struktur qurumlarında da geniş qeyd edilib.

# Ədliyyə orqanlarında Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı tədbirlər keçirilib



**Ədliyyə Nazirliyində və struktur qurumlarda keçirilmiş anma mərasimlərində Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi əbədi həkk olunmuş Xocalı soyqırımından ətraflı bəhs olunub, şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.**

Yığıncaqlarda bildirilib ki, Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərini yerlə yeksan edərək yüzlərlə dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutulması, o cümlədən qadınların, uşaqların və qocaların xüsusi amansızlıqla qətlə yetirilməsi ilə törədilmiş soyqırımı aktı bəşəriyyət və insanlıq əleyhinə ən ağır hərbi cinayətdir.

Tədbirlərdə bu qanlı faciəyə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verildiyi, Xocalı qətliamı barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması və soyqırımı aktı kimi tanınması üzrə məqsədyönlü addımların atıldığı vurğulanıb, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin hərbi gücünün, iqtisadi potensialının möhkəmlənməsi qeyd olunaraq bu soyqırımı törədənlərin layiqli cəzalarını alacaqlarına əminlik ifadə olunub.

Nazirlikdə Xocalı soyqırımından bəhs edən Azərbaycan və ingilis dillərində çap olunmuş yeni toplular, habelə kinozalda filmlər, elektron məlumat lövhəsində sənədlərdən və foto materiallardan ibarət slaydlar nümayiş etdirilib.



**Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Penitensiar xidmətdə də toplantı keçirilib.**

Mərasim Xocalı şəhidlərinin ruhuna ehtiram əlaməti olaraq faciə qurbanlarının əziz xatirəsinin sükutla yad edilməsi ilə başlayıb.

Bildirib ki, Sovetlər imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazılmış, zəmanəmizin ən ağır hərbi cinayətlərindən olan Xocalı soyqırımı Azərbaycan xalqının qan yaddaşına əbədi daxil olmuşdur. Qeyd olunub ki, XX əsrin sonunda baş verən bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş soyqırım aktıdır.

Tədbirdə iştirak edən AMEA-nın Tarix institutu-

nun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Qasım Hacıyev erməni qəsbkarlarının azərbaycanlılara qarşı əsrlər boyu həyata keçirdiyi etnik təmizləmə siyasətindən ətraflı məlumat verib, ümummilli lider Heydər Əliyevin böyük səyi sayəsində Xocalı soyqırımının öz düzgün siyasi-hüquqi qiymətini almasından, Heydər Əliyev Fondunun "Xocalıya ədalət" kampaniyasının uğurla davam etdirməsinin nəticəsi olaraq dünya ictimaiyyəti tərəfindən faciənin bəşəri cinayət kimi tanınmasından, ölkə Prezidenti cənab İlham Əliyevin tərəfindən faciə ilə bağlı tarixi həqiqətlərin beynəlxalq aləmə çatdırılması üzrə görülən genişmiqyaslı işlərdən bəhs edib.

Anma mərasimi Xocalı hadisələrinə həsr olunmuş sənədli filmin nümayişi ilə başa çatıb.





**Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (İKGF) Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başlayan "Xocalıya Ədalət" beynəlxalq kampaniyası çərçivəsində Ədliyyə Akademiyasında Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar təqdimat keçirilib.**

Akademiyanın rəhbər və məsul şəxslərinin, habelə tədris kursuna cəlb olunmuş 126 nəfər hakimliyə namizədin iştirak etdiyi tədbirə Heydər Əliyev Fondunun nümayəndələri Cavid Məmmədzadə və Fərid Cəfərov dəvət ediliblər.

Tədbirdə əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş Xocalı soyqırımının təfərrüatları barədə iştirakçılara məlumat verilib.

Sonra Heydər Əliyev Fondunun nümayəndələri tərəfindən "Xocalıya Ədalət" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlər və Soyqırım barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı gördüyü işlər barədə ətraflı təqdimat nümayiş etdirilib. Həmçinin, Heydər Əliyev Fondunun dəstəyi ilə işıq üzü görmüş Xocalı sakini Dürdanə Ağayevanın erməni əsirliyində olduğu müddətdə yaşadığı dəhşətli xatirələrinin əks olunduğu "Erməni əsirliyində 8 gün" adlı kitabın müxtəlif dillərdə nəşr olunaraq yayılmasından bəhs olunub.

Sonda Fondun nümayəndələri iştirakçıları maraqlandıran sualları ətraflı cavablandırıblar.






**Fevralın 26-da XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı Ədliyyə Nazirliyinin Yasamal, Nərimanov və Nəsimi rayon qeydiyyat şöbələrinin təşkilatçılığı ilə müxtəlif tədbirlər keçirilib.**

Yasamal rayonu Heydər Əliyev Mərkəzində, 35 saylı Musiqi məktəbində və Azərbaycan Dillər Universitetində Xocalı şəhidlərinin xatirəsinə həsr olunmuş tədbirlərdə yerli icra hakimiyyəti, məhkəmə, icra orqanlarının nümayəndələri, professor-müəllim və tələbə heyəti, eləcə də xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin nümayəndələri iştirak ediblər.

Tədbirlərdə faciə qurbanlarının xatirəsi ehtiramla anılaraq, həmin dövrdə baş verənlərə bir daha nəzər yetirilib. Bildirilib ki, 1994-cü ildə Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti tərəfindən fevralın 26-sı “Xocalı soyqırımı günü” kimi elan edilib. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, eləcə də soyqırıma obyektiv qiymət verilməsi Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib.

Eyni zamanda, ermənilərin 1992-ci ildə Xocalıda törətdikləri soyqırımından bəhs edən sənədli filmlər, fəal gənclər tərəfindən bu qanlı faciənin tarixini özündə əks etdirən səhnələr nümayiş etdirilib.




# Xocalı soyqırımına görə beynəlxalq cinayət mühakiməsi necə reallaşmalıdır?



*Səyyad MƏCİDOV,*
***Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin böyük məsləhətçisi***
***I dərəcəli ədliyyə qulluqçusu***

***Dünyada elə cinayətlər var ki, bu əməllər təkcə bir insanın və ya fərdin deyil, bütöv bir xalqın varlığına təhlükə yaradır və bütün bəşər cəmiyyəti üçün təhdid olaraq qalır. Tarixdə belə cinayətlərə görə cəza siyasəti də, hüquqi yurisdiksiya da hər zaman fərqli məna kəsb edib. Təsadüfi deyil ki, vaxtilə Böyük Britaniyanın baş naziri Uinston Çörcill faşistlərin bu cür əməllərini "adsız cinayət" adlandırırdı. Azərbaycan xalqının milli və ərazi bütövlüyünə, suverenliyinə qarşı zaman-zaman belə cinayətkar qəsdlər edilib, məhz türk, azərbaycanlı olduğuna, görə davamlı şəkildə diskriminasiya tətbiq olunub. Cinayət-hüquqi mahiyyətinə görə həmin əməllərin bir çoxu davam edən cinayətlər olmaqla, bu gün də ictimai təhlükəliliyi və transmilli kriminallığı qalmaqdadır. Son illər Azərbaycan bütün istiqamətlərdə (diplomatik, hüquqi, informasiya, hərbi və s.) kompleks şəkildə mübarizə apararaq Ermənistanın həyata keçirdiyi təcavüzkar siyasətin, xüsusilə 25 il bundan öncə 1992-ci ildə Xocalıda baş verən hərbi cinayət faktlarının beynəlxalq aləmdə soyqırım kimi tanıdılması ilə bağlı ardıcıl və məqsədyönlü addımlar atır.***

Ermənilərin Xocalıda törətdikləri qanlı faciəyə ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verilmiş, 1994-cü ildə Azərbaycan parlamentində 26 fevral Xocalı soyqırımı günü kimi qəbul olunmuşdur. Xocalı soyqırımı ilə bağlı Azərbaycan xalqına müraciətində ölkə Prezidenti İlham Əliyev vurğulamışdır ki, "biz azərbaycanlılara qarşı ermənilərin törətdiyi təcavüz və soyqırımın dünya dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlar tərəfindən tanınmasına və pislənməsinə çalışmalıyıq. Həm də bu zaman erməni şovinist millətçilərindən fərqli olaraq, siyasi, maddi və ya maliyyə kompensasiyaları qazanmaq üçün faydalanmaq istəmirik". Erməni vəhşiliklərini əks etdirən materialların xarici ölkələrdə, beynəlxalq təşkilatlar qarşısında nümayiş etdirilməsi məqsədi ilə Heydər Əliyev Fondu sərgilər təşkil edir, müxtəlif dillərdə nəşr olunan kitab və bukletlər yayır. Xüsusilə, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə geniş vüsət almış "Xocalıya ədalət" beynəlxalq kampaniyası uğurla davam edərək, bu aksiyaya dünyanın əksər ölkələrindən könüllülər qoşulmuş, kampaniyanın eyniadlı saytında dünya liderlərinə, beynəlxalq təşkilatlara ünvanlanan petisiyanı yüz minlərlə insan imzalamışdır.

Ölkə Prezidentinin 24 yanvar 2017-ci il tarixdə imzaladığı "Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında" Sərəncamında qeyd olunduğu kimi, "Xocalıya ədalət" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki öz hüquqi qiymətini almamışdır.

Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar Milli Məclisin 24 fevral 2017-ci il tarixli Qərarı ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində törədilmiş azərbaycanlıların kütləvi qırğınının soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsi bir daha təsdiq edilmişdir.

Xocalı soyqırımına hüquqi qiymətin verilməsinin və ermənilərə qarşı beynəlxalq hüquqi iddialarla çıxış edilməsinin bir sıra mühüm məqamları vardır. Hazırda malik olduğumuz mövcud resurslar - təkmil dövlət siyasəti, qəbul olunmuş beynəlxalq hüquqi aktlar və dövlətdaxili qanunvericilik, diplomatik şərait, respublikamızın real hərbi-iqtisadi

gücü, xüsusilə ölkəmizin 2016-cı ilin aprel döyüşlərindəki qalibiyyəti və Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı dövlət başçısı tərəfindən atılan konseptual addımlar, habelə informasiya müharibəsinin "xüsusi təyinatlıları", yəni müasir media və Azərbaycan gəncliyi Xocalı hadisələrinin soyqırım kimi tanıdılmasına, eyni zamanda Ermənistanın digər beynəlxalq cinayətlərinin hüquqi cəhətdən qiymətləndirilməsinə tam əsaslar və imkanlar yaradır.

***Xocalı soyqırımı milli və beynəlxalq hüquqda cinayət kimi***

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Xocalı soyqırımı ilə bağlı ölkə Prezidentinin verdiyi tapşırıqlar qarşımızda yeni vəzifələrin reallaşdırılmasını zəruri edir: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər biz daim Ermənistana qarşı bütün istiqamətlərdə, bütün yollarla, bütün formalarda hücum siyasətini aparmalıyıq. ...Nəzərə alsaq ki, həqiqət bizim tərəfimizdədir - faktlar, materiallar, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının işğalı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması. Bu siyasəti törədənlər hərbi cinayətkarlardır. Vaxt gələcək onlar bu cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər".

Respublika hərbi prokurorluğunun 7 fevral 2017-ci il tarixli məlumatına əsasən Xocalı soyqırımı epizodu üzrə 3 min nəfər şahid və zərərçəkən şəxs qismində dindirilmiş, 2 min nəfər zərərçəkmiş şəxs qismində tanınmış, bu cinayət üzrə 800-dən artıq müxtəlif ekspertizalar keçirilmişdir. Nəticədə 39 nəfər rəsmi şəxsin və 8 mülki vətəndaşın Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş və onların əksəriyyətinin Cinayət Məcəlləsinin 103-cü (soyqırım) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsi barədə qərar çıxarılmışdır.

Beynəlxalq hüquqda soyqırım cinayətinə 1948-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya"da anlayış verilir. Konvensiyanın 2-ci maddəsində qeyd olunur ki, soyqırım cinayəti hər hansı bir milli, etnik, irqi və ya dini qrupun tamamilə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərinin öldürülməsi, onlara ciddi bədən xəsarəti və ya əqli pozğunluq yetirilməsi, qrupun fiziki məhvinə yönəlmiş həyat şəraitinin yaradılması, qrup daxilində doğumun qarısının alınmasına yönəlmiş tədbirlər, zorla uşaqların bir qrupdan digərinə verilməsidir. Qeyd olunmalıdır ki, soyqırım cinayətinə görə bu Konvensiya ilə ilk dəfə beynəlxalq fərdi cinayət məsuliyyəti təsbit olunmuşdur.

Xocalı soyqırımı ilə bağlı ölkədaxili hüquqi prosedurların, xüsusilə bu faktlar əsasında cinayət məsuliyyəti, habelə istintaq-əməliyyat tədbirlərinin davam etməsi kontekstində hadisələrə beynəlxalq hüquq prizmasından yanaşmaqla cinayət mühakiməsinin reallaşdırılması xüsusi önəm kəsb edir. Çünki faktiki olaraq cinayət baş verdiyi halda cəza labüd deyil. Əlbəttə, buna bəzi beynəlxalq hüquqi sənədlərin qəbul olunması zamanı siyasi iddiaların önə çəkilməsi daha çox mane olur. Xatırladaq ki, 1998-ci ildə Romada qəbul olunmuş Beynəlxalq Cinayət Məhkəməsi (BCM) Statutunun 5-ci maddəsində aşağıdakı beynəlxalq cinayətlər sadalanır: soyqırım, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və təcavüz cinayəti. Lakin bunlardan təcavüzlə bağlı məsuliyyətə cəlbetmə, ümumiyyətlə, bu cinayətin tərifinin tam və qəti müəyyən olunmaması səbəbindən uzun müddət dayandırılmışdı, lakin 2010-cu il tarixli Kampalada qəbul olunmuş razılaşmaya əsasən 2017-ci ilin yanvarın 1-dən BCM artıq bu cinayətə görə də yurisdiksiyaya malikdir. Qeyd edək ki, Statutun müddəalarına görə ilk baxışdan Azərbaycan ərazisində törədilən cinayətlərə, o cümlədən soyqırım cinayətinə görə məsuliyyətə cəlbetmə üçün real imkanların olmadığı qənaətinə gəlinə bilər. Çünki Roma Statutu onun qüvvəyə minməsindən əvvəl törədilmiş cinayətlərə şamil edilmir (retroaktivlik prinsipi). Lakin fikrimizcə, burada soyqırım və təcavüz cinayətlərinə münasibətdə hüquqi baxımdan vəziyyət bir qədər fərqli olacaq. Daha doğrusu, müasir beynəlxalq cinayət hüququnun normalarına və məhkəmə presedentlərinə əsaslansaq, bu iki cinayətin istisna təşkil etdiyini müəyyən etmək mümkündür.

Belə ki, "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın tətbiqi üzrə Beynəlxalq Məhkəmənin 26 fevral 2007-ci il tarixli qərarında qeyd olunur ki, bu işdə Məhkəmənin səlahiyyəti yalnız Konvensiyanın 9-cu maddəsi ilə məhdudlaşır. Buradan belə nəticəyə gəlmək olar ki, Məhkəmə Konvensiyada beynəlxalq hüquqla nəzərdə tutulmuş öhdəliklərin pozuntuları arasında xüsusilə soyqırım cinayəti ilə bağlı müstəsna qərar çıxarmaq səlahiyyətinə malikdir. Eyni zamanda Konvensiyanın 9-cu maddəsi istənilən dövlətə imkan verir ki, soyqırım cinayətinə görə beynəlxalq instansiyalarda mübahisə tərəflərindən hər hansı birinin sorğusu əsasında məsuliyyət məsələsi qaldırıla bilər.

Bundan əlavə, BMT-nin 26 noyabr 1968-ci ildə

qəbul etdiyi və 11 noyabr 1970-ci ildə qüvvəyə minmiş "Hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərə münasibətdə cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin tətbiq edilməməsi haqqında" Konvensiyasının (31.05.1996-cı ildə ratifikasiya olunub) 1 (b) maddəsinə görə soyqırım cinayətinə, hətta o dövlətlərin daxili hüququna əsasən cinayət tərkibi yaratmasa belə, onun törədilməsi tarixindən asılı olmayaraq məsuliyyətə cəlbetmə müddəti tətbiq edilə bilməz. Digər tərəfdən, bununla bağlı beynəlxalq hüquqda artıq presedent də mövcuddur. Kamboca Fövqəladə Məhkəmə Palataları (2003) tərəfindən 1975-1979-cu illərdə qırmızı kxmerlərin hakimiyyəti dönəmində törədilmiş soyqırım cinayətinə görə mühakimə həyata keçirilmiş və bu zaman məsuliyyətə cəlbetmə müddəti tətbiq edilməmişdir.

Xocalı soyqırımının beynəlxalq hüquqi elementlərinə gəldikdə, bu cinayət 1992-ci il 26 fevral tarixində əhatəliliyi və sistematikliyi ilə fərqlənən, dünya dövlətləri tərəfindən hələ də cinayət olaraq tam etiraf olunmayan Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş beynəlxalq cinayətdir. 1988-ci ildən ermənilər tərəfindən başlanan və davam edən təcavüz cinayətinin fonunda baş verən bu kriminal əməlin xarakteri və elementlərinə bu gün beynəlxalq sənədlər əsasında qiymət verilməlidir. Ümumiyyətlə, beynəlxalq cinayətləri milli cinayətlərdən fərqləndirən mühüm şərtlərdən biri də ondan ibarətdir ki, burada cinayətin həm obyekti baxımından, həm də məsuliyyətin müəyyən olunması üçün kriminal əməl beynəlxalq ictimaiyyətin əksər subyektləri tərəfindən tanınmalıdır. Sonrakı mərhələ isə bu əməllərə görə beynəlxalq mühakiməni labüd edir.

***Xocalı soyqırımına görə universal yurisdiksiya prinsipinin tətbiqi imkanı***

Hər bir dövlət öz ərazisində baş verən cinayətlərə görə bir qayda olaraq ədalət mühakiməsini özü həyata keçirir. Lakin beynəlxalq cinayətlərə münasibətdə bu prinsip bir qədər fərqlidir. Soyqırım və digər beynəlxalq cinayətlərin təhlükəlilik dərəcəsi nəzərə alınaraq, onlara görə beynəlxalq hüquqda universal yurisdiksiya prinsipi müəyyənləşdirilmişdir. Bu prinsipə görə, təkcə cinayətin törədildiyi dövlət yox, digər dövlətlər də beynəlxalq cinayətlərlə bağlı ədalət mühakiməsini həyata keçirə bilərlər. Universal yurisdiksiya prinsipinə əsasən, Azərbaycanda soyqırım cinayəti törətmiş şəxsləri istənilən dövlətin milli məhkəməsi mühakimə etmək səlahiyyətinə malikdir. Biz Xocalı soyqırımının təşkilatçıları və icraçıları barədə axtarış elan etməklə, onları istənilən dövlətin vasitəsilə Azərbaycana gətirə və yaxud elə həmin dövlətin özündə mühakimə edə bilərik. Çünki Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyil, bəşəriyyət əleyhinə törədilmiş qanlı cinayətdir. Yüzlərlə dinc azərbaycanlının qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə qətlə yetirilməsi Xocalıda baş verən faktların beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

Tarixi Azərbaycan torpaqları olan Qarabağa və Zəngəzura XIX əsrdən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1918, 1992-ci illərdə azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə, 1988-ci ildə yüz minlərlə azərbaycanlının deportasiya olunması, Xocalı soyqırımı və bu gün də davam edən təcavüz cinayətinə görə ad hoc - vahid Beynəlxalq Hərbi Tribunal formalaşdırılması tələbi ilə çıxış etməklə ədalət mühakiməsi reallaşdırılmalıdır.

***Xüsusi beynəlxalq məhkəmə mexanizmi və hibrid yurisdiksiyalı məhkəmə***

Müasir beynəlxalq hüquqda ədalət mühakiməsinin reallaşması isə Ermənistan tərəfindən törədilən cinayətlərə kompleks yanaşmanı zəruri edir. Kompleks yanaşmanın mahiyyəti həm beynəlxalq hüquq, həm də milli hüquq normaları nəzərə alınmaqla Dağlıq Qarabağda və onun ətraf rayonlarında baş vermiş və hazırda davam edən cinayətlərə münasibətdə beynəlxalq mühakimə prosedurlarının və bir-biri ilə əlaqəli beynəlxalq cinayətlərin birgə nəzərdən keçirilməsidir.

Bu baxımdan müxtəlif vaxtlarda azərbaycanlılara qarşı törədilən təcavüz, soyqırım, insanlıq əleyhinə və müharibə cinayətlərinə görə ad hoc hərbi tribunal və ya digər xüsusi məhkəmə mexanizmlərinin yaradılması mümkündür.

Çünki beynəlxalq praktikada analoji cinayətlərə görə belə mexanizmlər mövcuddur. Beynəlxalq hüquqda xüsusi məhkəmələr o cinayətlərə münasibətdə yaradılır ki, onlar bütün bəşəriyyət üçün daha çox təhlükəli əməllər sayılır və belə təhlükənin davamlılığı labüd olur. Nürnberq və Tokio (1945), Yuqoslaviya (1993), Ruanda (1994), Şərqi Timor (2000), Sierra Leone (2002), Livan (2007) və s. ad hoc və hibrid məhkəmələr məhz bu məqsədlərlə yaradılmışdır. Belə dövlətüstü məhkəmə qurumları BMT Təhlükəsizlik Şurasının qətnaməsi əsasında yaradılır və ya cinayət qurbanı olan ölkə ilə BMT arasında müqavilə imzalanaraq xüsusi məhkəmə instansiyası qismində fəaliyyət göstərir. Baxmayaraq

ki, BMT-nin Haaqada daimi Ədalət Məhkəməsi fəaliyyət göstərir, lakin bu təsisatın səlahiyyətinə beynəlxalq cinayətlərə görə nə dövlətin, nə də fərdin cinayət məsuliyyətinə cəlb edilməsi məsələləri aid deyildir.

Xocalı soyqırımına görə xüsusi beynəlxalq məhkəmə təsisatının formalaşdırılması üçün ilk növbədə bu cinayətin qlobal miqyasda məhz bəşəriyyət əleyhinə cinayət olmasını əsaslandıran siyasi tendensiyanı ortaya qoymaq və məhz buna beynəlxalq ictimaiyyəti inandırmaq lazımdır. Məsələn, 2007-ci ildə Livanda yaradılan xüsusi məhkəmənin təyinatına diqqət yetirsək görərik ki, bu məhkəmənin predmeti yalnız 2005-ci ildə Livanın sabiq baş nazirinin qətlə yetirilməsi ilə bağlı mühakimə məsələlərini əhatə edir. Yəni, hər hansı bir siyasi xadimin qətlinin bu qədər "siyasiləşməsi" fonunda xüsusi məhkəmə yaradılması "zərurəti" ilə yüzlərlə sadə dinc əhalinin amansızlıqla və xüsusi qəddarlıqla qətl edildiyi, xəsarət yetirildiyi Xocalı soyqırımına görə ad hoc Tribunalının və ya digər xüsusi məhkəmə mexanizminin (məsələn, hibrid məhkəmənin) yaradılmaması müqayisəolunmazdır.

Ümumiyyətlə beynəlxalq praktikada hibrid (qarışıq) yurisdiksiyalı tribunal qismində fəaliyyət göstərən məhkəmə təcrübəsinə də istinad edilməsini Ermənistanın Azərbaycana hərbi təcavüzü, xüsusilə Xocalı soyqırımı kontekstində faydalı ola bilər Çünki bu zaman törədilmə müddətindən asılı olmayaraq, beynəlxalq cinayətlərə görə qarışıq məhkəmə mexanizminin tətbiqi aktual olacaq. Ad hoc məhkəmələrdən fərqli olaraq hibrid (qarışıq) məhkəmələr mahiyyətcə beynəlxalq cinayət mühakimə orqanları olub, onların fəaliyyət və yurisdiksiya qaydaları beynəlxalq və dövlətdaxili hüquq normalarının birgə tətbiqinə əsaslanır. Bu məhkəmələrin yurisdiksiya predmetini isə biri-biri ilə əlaqəli olan və eyni coğrafi regionda baş vermiş beynəlxalq cinayətlər təşkil edir. Misal üçün, Kamboca hökuməti ilə BMT arasında 2003-cü ildə imzalanmış Müqavilə əsasında yaradılmış Fövqəladə Məhkəmə Palatalarının əsas məqsədi 1975-1979-cu illərdə qırmızı kxmerlərin hakimiyyəti dönəmində törədilmiş soyqırım cinayəti də daxil olmaqla bir sıra hərbi və insanlıq əleyhinə cinayətlərin mühakimə edilməsindən ibarət olmuşdur. Hibrid məhkəmə mexanizminin, həmçinin bir sıra üstünlükləri var. Birincisi, hibrid məhkəmələrin təşkili və ya milli məhkəmələrin beynəlxalq hüquqi status əldə etməsi beynəlxalq cinayət mühakimə icraatında yeni və unikal mexanizmdir. İkincisi, hibrid məhkəmələrdə hakimlər həm beynəlxalq səviyyəli, həm də milli məhkəmələrin hakimlərindən təşkil olunur ki, bu da işin daha səmərəli və yerli şərait, habelə milli qanunvericilik nəzərə alınaraq aparılması imkanlarını artırmış olur. Üçüncüsü, bu mexanizm işin daha sürətli, effektiv həyata keçirilməsini, habelə qərarların daha çevik qəbul olunmasını şərtləndirir.

Beləliklə, Xocalı soyqırımı ilə bağlı fəaliyyətin praktik-hüquqi müstəviyə keçirilməsi üçün ilk növbədə, Ermənistan tərəfindən törədilən bu cinayət dünya parlamentləri tərəfindən soyqırım cinayəti kimi tanınmalı, hadisələrə düzgün siyasi qiymət verilməli və cinayət məsuliyyəti məsələsi olduqca kəskin şəkildə qoyulmalıdır. İkincisi, Xocalı soyqırımına görə universal yurisdiksiya əsasında ədalət mühakiməsinin həyata keçirilməsi mühüm məsələdir. Üçüncüsü, həmin faktların 1948-ci il Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında beynəlxalq Konvensiyanın, 1949-cu il Müharibə qurbanlarının beynəlxalq müdafiəsi haqqında Cenevrə Konvensiyasının (IV Konvensiya), 1998-ci il Beynəlxalq Cinayət Məhkəməsi Statutunun və onlarla beynəlxalq müqavilə müddəalarını pozduğu və cinayətin subyektlərinin məhz erməni etnik qrupuna məxsus şəxslər və ya Ermənistan rəsmiləri olduğu iddia edilərək, törədilən cinayət hərəkətlərinin azərbaycanlılara qarşı etnik təmizləmənin əyani sübutu və soyqırımın törədilməsini özündə ehtiva edən zəruri niyyət olduğu xüsusi olaraq bəyan olunmalıdır. Dördüncüsü, cinayətin subyektlərinin hərbi elementlə sıx əlaqəsinin olduğu nəzərə alınmaqla Dağlıq Qarabağda baş verən digər cinayətlərlə bağlı ad hoc Hərbi Tribunalın və ya hibrid yurisdiksiyalı məhkəmənin yaradılması zərərçəkən tərəf olaraq Azərbaycanın hüququdur.

**ƏDƏBİYYAT:**


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışı. 22 İyul, 2010. http://www.azertag.com
2. Lukaşuk İ.İ., Naumov A.V. Mejdunarodnoe uqolovnoe pravo. M.: SPARK. 1999. S. 39-40;
3. Kibalğnik A.Q. Sovremennoe mejdunarodnoe uqolovnoe pravo. SPb: Örüentr Press. 2003. S. 147.
4. http://www.un.org/law/icc/statute/romefra.htm




# Bəşər tarixinin ən qanlı faciəsi - Xocalı soyqırımı



**Leyla HACIYEVA,**
***Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzi Fiziki-kimyəvi ekspertizalar şöbəsinin ekspert vəzifəsi üzrə stajoru***

***O gecə Xocalının yaşadığı dəhşəti, Xocalı sakinlərinin üzləşdikləri müsibətləri, vəhşilikləri təsvir etməkdə söz acizdir. Yaxın dövr tarixinin şahidi olmadığı faciəni ancaq insanlığı, mərhəməti itirmiş ermənilər törədə bilərdi. Bu vəhşiliyi heç nə ilə müqayisə etmək mümkün deyil. Tarix boyu ən qəddar hökmdarların zülmkarlığını belə kölgədə qoydular. Xocalı şəhərini hədəfə almaqda məqsəd nə idi? 7000 əhalisi olan bu şəhər Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazisi kimi erməniləri narahat edirdi. Çünki Xocalı Dağlıq Qarabağın paytaxtı Xankəndindən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşir. Yeganə aeroportun məhz Xocalıda yerləşməsi də Dağlıq Qarabağın taleyində şəhərə xüsusi strateji önəm verirdi. Bu səbəbdən Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və burada yerləşən aeroportu ələ keçirmək idi.***

***Xocalı Dağlıq Qarabağ və onun sonrakı inkişafı üçün bir açar funksiyasını yerinə yetirirdi. Xocalı faciəsi iki yüz ilə yaxın müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı, ən qanlı səhifəsidir.***

1992-ci il fevralın 16-da, soyqırım planından on gün əvvəl məlum 366-cı alayın nəzdində "Klukin, erməni cəbhəsi" deyilən "rota'" yaradılır. Sözügedən "rota"nın əsasını Livan, Amerika, Kanada, İran, İsveç və Hollandiyadakı erməni icmalarını təmsil edən, beyinlərinə yeridilən, başı üstlərində "Böyük Ermənistan" xəritəsi asılan silahlı quldur erməni birləşmələri təşkil edirdi. Fevralın 17-də qızlardan ibarət "Şuşanik" adlı snayperçilər dəstəsi də həmin cəbhəyə qoşuldu. Düşüncələrinə türk düşmənçiliyi hopdurulan, insani idrakdan uzaq olan "Şuşanik" snayperçiləri Livandan gətirilmişdi. Burada diqqət çəkən məqamlardan biri də başkəsən qrup-Arabo batalyonunun dəvət edilməsi idi. Livanda döyüş təcrübəsi keçmiş erməni könüllülərdən ibarət qruplaşma Yaxın Şərq bölgəsində terrorçuluq üzrə əsl peşəkarlar sayılırdı. Onların malik olduqları xüsusi geyim və silahlar başkəsənlərin özəl hazırlıq təhcizatından xəbər verirdi. Bu qeyri-insanilik keyfiyyətinə malik quldurların Xocalı əməliyyatına cəlb olunması artıq burada nələrin baş verəcəyini, şəhərdən bir nəfərin sağ qurtula bilməyəcəyinə əsas verirdi. Arabo batalyonunun Xocalı qətliamında iştirakına dair çoxsaylı dəlil-sübutlar mövcuddur. Öldürülmüş dinc sakinlərin, körpə uşaq və qadınların, qocaların cəsədlərini də təhqir edənlərin əsasən məhz bu batalyonun üzvləri olduqları təsdiqlənmişdir. Milli Təhlükəsizlik Nazirliyinin soyqırımı araşdıran istintaq komissiyasına təqdim etdiyi Xocalı şəhərinə hərbçilərin danışıqlarının lent yazısı da planın əvvəlcədən hazırlandığını və bu faciədə Rusiyanın 366-cı rus hərbi alayının iştirakını təsdiqləyir. Soyqırım ilə bağlı araşdırmalar zamanı məlum olub ki, Xocalıya hücumda Rusiyanın 366-cı motoatıcı alayı ilə yanaşı, SSRİ-nin xüsusi təyinatlı briqadalarında xidmət keçmiş könüllülərdən ibarət 150 nəfərlik qrup iştirak etmişdir.

Beləliklə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan xalqına qarşı amansız şəkildə soyqırım həyata keçirildi. 7 min əhalisi olan Xocalı şəhərində cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində yüzlərlə dinc sakin şəhid oldu, qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qaldı, xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirildi. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdi.

Xocalı soyqırımında iştirak edən hərbi hissələrin

birinin əks-kəşfiyyat şöbəsinin rəisi, polkovnik V. Savelyev özünün "Məxfi arayış"ında erməni terror təşkilatlarıyla Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək, fakt və sənədlərdə bütün olub-keçənləri şərh edərək etiraf edirdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin gülllədən keçmiş bədənlərini unuda bilmərəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım arayışı həm Kremlə, həm də SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun, dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi".

Xocalı qətliamı Ermənistanın Dağlıq Qarabağı işğal etmək məqsədilə apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım cinayətlərinin miqyasca ən dəhşətlisidir. Xalqımızın qan yaddaşına həmişəlik həkk olunmuş Xocalı faciəsi əsl soyqırım aktıdır. Soyqırım (genosid) - ayrı-ayrı əhali qruplarının irqi, milli, yaxud dini mənsubiyyətinə görə məhv edilməsi, bəşəriyyətə qarşı törədilən ən ağır cinayətlərdən biridir.

Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir. Heydər Əliyev dərhal öz mövqeyini bütün dünyaya bildirdi: "Biz kədər içindəyik, qəm içindəyik. Bu gün Xocalı faciəsinin nə qədər dəhşətli faciə olduğunu və Azərbaycan xalqına nə qədər böyük zərbə vurduğunu bir daha dərk etdik, bir daha hiss etdik. Ancaq eyni zamanda, bu faciə də, Azərbaycanın başına gələn bəlalar da xalqımızın iradəsini qırmayıbdır və qıra da bilməz!" Ulu öndər Heydər Əliyev hər il faciənin ildönümündə keçirilən tədbirlərdə iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır.

Ümummilli Lider ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə çevrilməsi, orada narkotik maddələrin yetişdirilməsi, mədəni abidələrin məhv edilməsi və digər faktların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirərək, erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymət verilməsinə nail olmuşdur.

Belə ki, Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı (genosidi) günü haqqında" qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırmışdır. Həmin dövrdən sonra Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın havadarlarının dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, xarici dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı genosidi müxtəlif təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytları yaradılmışdır.

Beynəlxalq hüquq Xocalı qətliamının soyqırımı olduğunu birmənalı təsdiqləyir. Hazırda dünyada bəzi xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən bu faciəni soyqırımı kimi tanıyır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayaraq geniş vüsət almış "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki öz hüquqi qiymətini almamış, ermənilərin terrorçu, işğalçı əməllərinə qarşı qəti tədbirlər görülməmişdir. Lakin ölkə rəhbərliyinin bu məsələ ilə bağlı gördüyü işlər əminliklə deməyə əsas verir ki, gec-tez bu soyqırımı törədənlər layiqli cəzalarını alacaqlar.

Xocalı faciəsinin gələcək nəsillərə çatdırılması, onların yaddaşından bu izlərin silinməməsi qarşımızda duran mühüm məqsədlərdən biridir. Hər il ölkəmizdə müxtəlif idarə və təşkilatlarda, universitetlərdə, məktəblərdə anım mərasimləri keçirilir, çıxışlar olunur, qətliama həsr olunmuş video filmlər göstərilir. Bu il Xocalı soyqırımının 25-ci ildönümü ilə bağlı ölkəmizdə və onun hüdudlarından kənarda çoxsaylı anım tədbirləri təşkil edilmiş, fevralın 26-da Bakıda keçirilmiş ön sırasında ölkə Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın olduqları və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşımışdır.

Xocalıda tökülən günahsız qanlar yerdə qalmayacağına, Azərbaycan xalqının birliyi, əqidə bütövlüyü naminə haqqın qələbə çalacağına, ədalətin bərqərar olacağına inanırıq. Nə qədər zaman keçsə də, Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaqdır.

# Ədliyyə Akademiyası hakimlər, vəkillər və digər hüquqşünaslar üçün təlimlər keçirib

Ədliyyə Akademiyası tərəfindən Avropa Şurası ilə birgə həyata keçirilən "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində fevralın 16-17-də "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi (ədalətli məhkəmə araşdırması hüququ)", fevralın 28-də isə "Məhkəmələrdə idarəetmənin səmərəliliyinin artırılması", habelə həmin gün Akademiyada "Mənzil Məcəlləsinin tətbiqinin bəzi məsələləri" mövzularında hakimlər üçün təlim, tədris və ixtisasartırma kursları keçirilib.

Ümumilikdə 70-ə yaxın hakimin iştirak etdiyi tədbirlərdə qeyd olunan aidiyyəti mövzular, o cümlədən hakim etikası ilə bağlı milli və beynəlxalq standartlar (Hakimlərin etik davranış Kodeksi, Hakimlərin davranışı üzrə Banqalor Prinsipləri), ədalət mühakiməsinin keyfiyyətinin artırılması (məhkəməyə daxil olan işlərin təyin edilməsi və təşkili məsələləri), mənzil hüququnun obyektləri, mənzil fondu, Mülki və Mənzil məcəllələrinin qarşılıqlı əlaqəsi məsələləri (Konstitusiya Məhkəməsinin qərarlarında), məhkəmə qaydasında mənzil hüquqlarının müdafiəsi və s. mövzular tədris olunub.

“Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı



maddəsi (ədalətli məhkəmə araşdırması hüququ)" mövzusunda məhkəmə aparatı işçiləri üçün də ixtisasartırma kursu təşkil edilib. Fevralın 22-də Akademiyada keçirilmiş və Bakı şəhərinin, eləjə də Abşeron rayon məhkəmələrindən 25 nəfər məhkəmə aparatı işçisinin iştirak etdiyi kursda İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsi: ümumi baxış, Ədalətli məhkəmə araşdırması hüququnun tətbiq dairəsi, Ədalətli məhkəmə araşdırması hüququ üzrə təqsirləndirilən şəxsin təminatları mövzuları üzrə mühazirələr deyilib.



Fevralın 20-21-də Ədliyyə Akademiyası tərəfindən icra məmurları üçün nazirliyin Qeydiyyat və notariat baş idarəsində "İnformasiya-kommunikasiya texnologiyalarının müasir imkanları və ədliyyə orqanlarında tətbiqi məsələləri", fevralın 23-34-də isə Akademiyada "Etika və ünsiyyət psixologiyası" mövzularında təlimlər keçirilib.

20 nəfər dinləyicinin iştirak etdiyi birinci təlimdə "Elektron hökumət, elektron xidmətlərin mahiyyəti və fəaliyyət prinsipləri. Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən elektron xidmətlər", "Ədliyyə Nazirliyində tətbiq olunan informasiya sistemləri", "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" və ədliyyə orqanları qarşısında duran vəzifələr", "Kompüterdən istifadə bacarıqlarının inkişaf etdirilməsi üzrə məşğələ", "Elektron imza və onun tətbiqi məsələləri", "Ədliyyə orqanlarında elektron sənəd dövriyyəsi sisteminin təşkili və tətbiqi məsələləri" və s. mövzular üzrə mühazirələr oxunub.

18 nəfər icra məmurunun qatıldığı növbəti təlimdə isə "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması", "Hüquq psixologiyasının aktual problemləri", "Ədliyyə orqanları işçilərinin etik davranış Qaydalarının tələbləri və bu Qaydaların pozulmasına görə məsuliyyət", "Hüquqi yardımla bağlı beynəlxalq sənədlərin düzgün və vaxtında icrası mexanizmi", "Yetkinlik yaşına çatmayanların iştirakı ilə məhkəmə qərarlarının icrasının etik xüsusiyyətləri", "Konfliktologiyanın yaranma tarixi, səbəbləri və profilaktikası" mövzuları tədris olunub.

Ədliyyə Akademiyası Avropa Şurasının Azərbaycan üçün 2014-2016-cı illər üzrə Fəaliyyət Planının bir hissəsi olan "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində Bakı şəhəri və regionlarda vəkillər üçün silsilə təlimlər keçirir.

Bu tədbirlərin davamı olaraq, fevralın 21-22-də paytaxtda vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi və ailə həyatına hörmət hüququ) mövzusunda iki günlük təlim keçirilib. Vəkillər Kollegiyasının 35 üzvünün cəlb



olunduğu təlimdə qeyd olunan mövzu ilə bağlı mühazirələr dinlənilib, iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

## Bələdiyyələrin hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər görülür




Bakı şəhəri və Abşeron rayonu üzrə bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə fevralın 15-16-da və 22-23-də Ədliyyə Akademiyasında tədris kursları keçirilib.

Kurslarda "İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu", "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə qulluqçularının etik davranış qaydaları", "Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması", "Yerli (bələdiyyə) vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri", "Əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitam olunması", "Bələdiyyələrdə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili" və "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu mövzuları üzrə mühazirələr oxunub.

Gəncə regional ədliyyə idarəsi tərəfindən fevralın 8-də Nizami (Gəncə ş.) bədədiyyəsində "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun icrası barədə hüquqi-maarifləndirici toplantı təşkil olunub.

Nizami və Kəpəz (Gəncə ş.) bələdiyyələrinin qulluqçularının iştirak etdiyi tədbirdə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən işlər, vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirakı vurğulanıb, bələdiyyə qulluqçularının etik davranış qaydalarına dönmədən əməl olunmasının vajibliyi qeyd olunub.

Çıxışlarda bələdiyyə nümayəndələrinin bilik və təcrübəsinin artırılması üçün milli assosiasiyalar və Ədliyyə Nazirliyi tərəfindən bölgələrdə müxtəlif mövzularda seminar və ixtisasartırma



kurslarının təşkil olunduğu, vətəndaşlarla münasibətlərin yüksək səviyyədə qurulması məqsədilə hazırda Nizami, Kəpəz və Hacıkənd bələdiyyələrinin internet saytlarının fəaliyyət göstərdiyi bildirilib. Sonda mövzu ətrafında faydalı fikir mübadiləsi aparılıb.





Ədliyyə Nazirliyinin İmişli regional ədliyyə idarəsinin təşkilatçılığı ilə cari ilin fevralında İmişli və Beyləqan rayonlarında, Biləsuvar və Horadiz şəhərlərində bələdiyyə nümayəndələri üçün seminarlar keçirilib.

Seminarlarda çıxış edən İmişli regional ədliyyə idarəsinin rəisi Hakim Məmmədov Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, nazirliyin Bələdiyyələrlə İş Mərkəzi və regional ədliyyə idarəsi tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi, onlara metodiki kömək göstərilməsi və fəaliyyətlərinə inzibati nəzarət sahəsində görülən işlər barədə məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

Həmçinin, "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Qanundan irəli gələn vəzifələr, "Vətəndaşların müraciətləri haqqında" Qanunda yeniliklər və tələblər, bələdiyyələrdə kargüzarlığın təşkili, yerli vergilərin və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri, bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi mövzuları tədris olunub.

Astara şəhərində Lənkəran regional ədliyyə idarəsinin təşkilatçılığı ilə fevralın 21-də bələdiyyə üzvlərinin və qulluqçularının maarifləndirilməsi məqsədi ilə keçirilən seminar-müşavirədə də "Vətəndaşların müraciətləri haqqında" Qanundan irəli gələn vəzifələr, "Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi" mövzusunda müzakirələr aparılıb.

Rayon İcra Hakimiyyətinin və bələdiyyələrin nümayəndələrinin iştirak etdiyi tədbirdə bildirilib ki, bələdiyyə üzvlərinin və qulluqçularının maarifləndirilməsi və onlara metodiki kömək göstərilməsi daim diqqətdə saxlanılır.

Tədbirdə Vətəndaşların müraciətləri haqqında Qanundan irəli gələn vəzifələr, bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, bələdiyyə torpaqlarının idarə edilməsi ilə bağlı qanunvericiliyə edilən dəyişikliklər barədə məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Naxçıvanda məhkumlar üçün peşə kursları təşkil olunub





**Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidmətinin qarışıq rejimli cəzaçəkmə müəssisəsində məhkumların yenidən cəmiyyətə uyğunlaşması istiqamətində ardıcıl tədbirlər görülür.**

Ötən ilin fevral ayından istifadəyə verilən yaradıcılıq və istehsalat binasında istehsalat prosesi ilə yanaşı, Naxçıvan Regional Peşə Tədris Mərkəzinin müəllimlərinin iştirakı ilə kompüter istifadəçisi, qazanxana maşinisti, ağac üzərində oyma və bərbər peşə kursları da təşkil olunub. İndiyədək kurslarda 34 məhkum bu peşələrin sirlərini öyrənib. Bu da məhbusların həbsxanadan sonrakı gələcək həyatlarında mühüm əhəmiyyət daşıyır.

Məhbuslar emalatxanada oyma işləri görür, nərd taxtaları ilə yanaşı sandıqlar, müxtəlif ölçülü məişət əşyaları hazırlayırlar. Sifarişlər üzərində işləyən məhbuslar artıq böyük ölçülü məişət əşyaları, stol və stullar da düzəltməyə başlayıblar.

Qarışıq rejimli cəzaçəkmə müəssisəsində və Naxçıvan şəhərində məhkumların əl işlərindən ibarət mağaza da fəaliyyət göstərir. Bu mağazalarda əl işlərinin satışı ilə yanaşı, sifarişlər də qəbul olunur. Həmin mağazalardan vətəndaşlar istədikləri ölçüdə məişət və digər əşyaların sifarişlərini verə bilərlər.

Məhkumların bu peşələri öyrənməsi məhkumluq müddəti başa çatdıqdan sonra onların cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayacaq. Çünki onların içərisində elə gənclər var ki, ilk peşələrini məhz burada öyrənirlər.

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.7-ci (hər iki halda) və 9.11-ci yarımbəndlərdən ", habelə təhsil müəssisələrinin" sözləri çıxarılsın.
2. 9.9-cu yarımbənddə "və qeyri-kommersiya hüquqi şəxslərin, habelə xarici qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlik və filiallarının," sözləri çıxarılsın, "sahələrdə" sözündən (birinci halda) sonra "və bu Əsasnamənin 9.11-ci yarımbəndində nəzərdə tutulmuş sahədə" sözləri əlavə edilsin.
3. 9.12-ci yarımbənddə ", habelə təhsil müəssisələrinin" sözləri "və xarici qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlik və filiallarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 fevral 2017-ci il*

## "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494, 2015, N 12,

maddə 1434; Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 458-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 13.2.1-ci maddədə "başa çatdığı vaxtdan" sözlərindən sonra ", məhkəmə qərarı dərhal icra edilməli olduqda - onun qəbul edildiyi günün ertəsi günündən" sözləri əlavə edilsin.

2. 19.2-ci maddədə "müvafiq məhkəmə" sözləri "bu Qanunun 21.1-ci və 21.2 ci maddələrinə uyğun olaraq icraatı dayandırmış müvafiq icra məmuru və ya məhkəmə, yaxud icra xidmətinin rəhbəri" sözləri ilə əvəz edilsin.

3. 19.3-cü, 22-ci və 23.6-cı maddələr ləğv edilsin.

4. 20-ci maddə üzrə:

4.1. adında "əsasları" sözündən sonra "və qaydası" sözləri əlavə edilsin;

4.2. aşağıdakı redaksiyada 20.2-20.8-ci maddələr əlavə edilsin:

"20.2. İcra sənədi üzrə icraata xitam verilməsi barədə icra məmuru tərəfindən əsaslandırılmış qərar qəbul edilir. Həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur və onun surəti 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana göndərilir.

20.3. İcra məmuru icraata xitam verilməsi barədə qərar qəbul etdikdən sonra icraat üzrə hər hansı icra hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.

20.4. İcra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarı daxil olduqdan sonra məhkəmə 10 gün müddətində həmin qərarın bu Qanunun tələblərinin pozulmaqla qəbul edilməsini müəyyən edərsə həmin qərarı ləğv edir.

20.5. Tərəflər və icra sənədini vermiş digər orqan qərarın onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində həmin qərardan müvafiq məhkəməyə şikayət verə bilərlər.

20.6. İcraata xitam verilməsi barədə icra məmurunun qərarı məhkəmə tərəfindən ləğv edildikdə icra tədbirləri davam etdirilir. Bu zaman icra sənədinin icra müddəti icraata başlamaq haqqında qərarın qəbul edildiyi vaxtdan hesablanır.

20.7. İcraata xitam verilməsi barədə icra məmurunun qərarı bu Qanunun 20.4-cü və 20.5-ci maddələrinə müvafiq olaraq ləğv olunmadıqda və ya ondan şikayət verilmədikdə, şikayət verildikdə isə bu şikayətin təmin olunmaması barədə məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra icra sənədi 3 gün müddətində onu vermiş məhkəməyə və ya digər orqana geri qaytarılır.

20.8. İcra sənədi məhkəməyə və ya icra sənədini vermiş digər orqana qaytarıldıqdan sonra icra məmuru təyin etdiyi bütün icra tədbirlərini ləğv edir.".

5. 21-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 21. İcraatın dayandırılması haqqında məsələyə baxılması

21.1. Bu Qanunun 17-ci maddəsində nəzərdə tutulmuş icraatın dayandırılmasının məcburi olduğu hallarda icra sənədi üzrə icraat icra məmuru tərəfindən dayandırılır.

21.2. Bu Qanunun 18-ci maddəsində nəzərdə tutulmuş icraatın dayandırılmasının mümkün olduğu hallarda icra məmuru tərəfindən icraatın dayandırılması barədə müvafiq məhkəməyə əsaslandırılmış və icra qurumunun rəhbəri tərəfindən təsdiq olunmuş təqdimat verilir.

21.3. Məhkəmə, icra sənədi üzrə icraatın dayandırılması məsələsinə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231-ci maddəsində nəzərdə tutulmuş qaydada baxır və icra məmurunun təqdimatının təmin olunması və ya onun rədd edilməsi barədə qərardad çıxarır.

21.4. İcraatın dayandırılması haqqında qərardaddan Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş müddətlərdə və qaydada şikayət verilə bilər.

21.5. İcra sənədi üzrə icraat icra məmuru tərəfindən dayandırıldığı hallarda bu barədə qərar qəbul olunur və həmin qərar icra qurumunun rəhbəri tərəfindən yoxlanılaraq təsdiq olunur. Qəbul edilmiş qərarın surəti 3 gün müddətində tərəflərə, habelə icra sənədini vermiş məhkəməyə və ya digər orqana göndərilir.

21.6. Tərəflər və icra sənədini vermiş digər orqan onlara təqdim olunduğu (onlar tərəfindən alındığı) gündən 10 gün müddətində icraatın dayandırılması barədə icra məmurunun qərarından müvafiq məhkəməyə şikayət verə bilərlər.

21.7. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, ipoteka predmetinə tutmanın yönəldilməsi barədə məhkəmə qərarının icrası üzrə icraatın dayandırılmasına yalnız ipoteka saxlayanın razılığı ilə yol verilir.

21.8. Dayandırılmış icraat üzrə hər hansı icra hərəkətlərinin həyata keçirilməsinə yol verilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 dekabr 2016-cı il*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016; Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 335-VQD nömrəli və 16 dekabr tarixli 455-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 231.3-cü maddənin birinci cümləsində "İcra üzrə icraatın dayandırılması" sözləri "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 21.2-ci maddəsi ilə müəyyən edilmiş əsaslara uyğun olaraq icra sənədi üzrə icraatın məhkəmələr tərəfindən dayandırılmalı olduğu hallarda icra üzrə icraatın dayandırılması (bundan sonra - icra üzrə icraatın dayandırılması)" sözləri ilə əvəz edilsin.

2. 234-cü maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 234. Qətnamənin icra edilməsi

234.1. Bu Məcəllənin 234.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir.

234.2. Aşağıdakı qətnamələr dərhal icra olunur:

234.2.1. şəxsin saxlanılması üçün vəsaitlərin, o cümlədən alimentlərin alınması haqqında;

234.2.2. məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 dekabr 2016-cı il*

## "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687,

N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243; Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 430-VQD nömrəli Qanunu) 32-ci maddəsinin doqquzuncu abzasında "icarəyə verilməsinə" sözləri "icarə və ya digər əşya hüquqlarına" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 dekabr 2016-cı il*

### Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4, I kitab, maddə 250, N 5, maddə 323; 2002, N 12, maddə 709; 2003, N 8, maddə 420; 2004, N 3, maddə 123, N 5, maddə 318, N 6, maddə 415, N 10, maddə 761, N 11, maddə 901; 2005, N 2, maddə 61, N 6, maddə 466, N 8, maddələr 684, 692, 693, N 11, maddə 996, N 12, maddə 1085; 2006, N 2, maddə 68, N 3, maddə 225, N 5, maddə 387, N 6, maddə 478, N 8, maddə 657, N 12, maddə 1005; 2007, N 2, maddə 80, N 6, maddə 560, N 8, maddə 745, N 10, maddə 937, N 11, maddə 1053, N 12, maddələr 1215, 1219; 2008, N 3, maddə 145, N 6, maddə 456, N 7, maddə 602, N 12, maddə 1049; 2009, N 2, maddə 47, N 5, maddə 295, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 2, maddə 75, N 3, maddə 171, N 4, maddələr 265, 266, 276; 2011, N 2, maddə 71, N 7, maddə 586, N 8, maddə 750, N 12, maddələr 1073, 1102; 2012, N 1, maddə 5, N 5, maddə 403, N 6, maddə 498; 2013, N 1, maddə 15, N 6, maddə 620, N 11, maddə 1280, N 12, maddələr 1469, 1478; 2014, N 2, maddə 96, N 7, maddə 768; 2015, N 3, maddə 254, N 5, maddə 512, N 7, maddə 814, N 10, maddə 1093; 2016, N 1, maddə 26, N 2, I kitab, maddələr 186, 204, N 3, maddə 401, N 4, maddələr 640, 646, N 6, maddə 1005, N 7, maddə 1248) aşağıdakı dəyişikliklər edilsin:

1. 144.1-ci maddə üzrə:

1.1. ikinci cümlədə "notarius" sözündən sonra "və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin;

1.2. üçüncü cümlədə "O, təsdiqlədiyi" sözləri "Onlar təsdiqlədikləri" sözləri ilə əvəz edilsin.

2. 144.2-ci maddənin dördüncü cümləsində, 144.3-cü maddənin ikinci cümləsində və 148.3-cü maddənin birinci cümləsində "notarius" sözündən sonra "və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

3. 144.2-1-ci və 144.3-cü maddələrin birinci cümlələrində "Notarius" sözündən sonra "və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

4. 146.8-ci maddənin birinci cümləsində "notarius" sözündən sonra ", qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 30 dekabr 2016-cı il*

**”Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 304-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

"Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, N 7, maddə 626) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.4-cü bəndə "orqanlar" sözündən sonra "(qurumlar)" sözü əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə" üzrə:

2.1. 1.7-ci bəndin ikinci cümləsinə, 3.2-ci, 3.9-cu və 4.3-cü bəndlərə "orqan" sözündən sonra "(qurum)" sözü əlavə edilsin;

2.2. 3.1-ci bəndə və 5.1-ci bəndin birinci cümləsinə "orqanlar" sözündən sonra "(qurumlar)" sözü əlavə edilsin;

2.3. 3.4-cü bəndə, 4.2-ci bəndin ikinci cümləsinə və 4.4-cü bəndə "orqanın" sözündən sonra "(qurumun)" sözü əlavə edilsin;

2.4. 3.6-cı bəndə hər iki halda "orqanla" sözündən sonra "(qurumla)" sözü əlavə edilsin;

2.5. 4.1.2-ci yarımbəndə və 4.2-ci bəndin birinci cümləsinə "orqana" sözündən sonra "(quruma)" sözü əlavə edilsin;

2.6. 4.1.3-cü yarımbəndə "orqanlarla" sözündən sonra "(qurumlarla)" sözü əlavə edilsin;

2.7. 5.1-ci bəndin birinci cümləsinə "orqanlara" sözündən sonra "(qurumlara)" sözü əlavə edilsin;

2.8. 5.2-ci bənddə "Azərbaycan Respublikası Mərkəzi Bankının" sözləri "maliyyə bazarları tənzimləyicisinin (Azərbaycan Respublikası Mərkəzi Bankının və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının)" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 fevral 2017-ci il*